

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 sentyabr 2026-cı il, cümə
№ 159 (7226)
Qiyməti 60 qəpik


# Dünya çoxqütblü nizama doğru...

## Azərbaycanın ŞƏT-də mühüm rolu




Bax səh. 3

## Dövlətin sosial qayğısı

### Tibb işçilərinin əməkhaqlarının artırılması bu sahəyə olan növbəti diqqətin təzahürüdür

Bax səh. 2

## Azərbaycan-Ermənistan sülh gündəliyi müzakirə olunub

Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan ATƏT Parlament Assambleyasının Prezidenti Pere Xuan Pons Sampietro ilə görüşüb. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq gündəliyində duran məsələlər, ATƏT məkanında mövcud təhlükəsizlik çağırışları, regionda vəziyyət, habelə Azərbaycan-Ermənistan sülh gündəliyi müzakirə olunub.

C.Bayramov Azərbaycanın ATƏT Parlament Assambleyası ilə əməkdaşlığa əhəmiyyət verdiyini, parlamentlərarası dialoqun ATƏT məkanında qarşılıqlı anlaşmanın, etimadın və əməkdaşlığın təşviqində mühüm rol oynadığını qeyd edib. Bu çərçivədə, Azərbaycan Milli Məclisinin ATƏT PA çərçivəsində fəaliyyəti, qarşılıqlı səfərlər və müxtəlif səviyyələrdə keçirilən görüşlərin əlaqələrin inkişafına verdiyi töhfə vurğulanıb.

Nazir Azərbaycanın regionda sülhün və sabitliyin təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər barədə qarşı tərəfə məlumat verib. Azərbaycan-Ermənistan...

Bax səh. 2

## Daşınmaz əmlakla bağlı yeni qaydalar



Bax səh. 4

## Bakı II Beynəlxalq İnvestisiya Forumu astanasında

Bax səh. 4

## Hidayət Orucov: yaddaşdan gələcəyə, ömürdən ucalığa

Bax səh. 6

## BMT emissiyaları təcili azaltmağa çağırıb

Bax səh. 7

## Minatəmizləmə fəaliyyəti milli prioritetlər sırasında...

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. Ölkəmiz bu problemi dünya ictimaiyyətinə çatdırmaq üçün müxtəlif addımlarla yanaşı, beynəlxalq konfranslar da təşkil edir.

2-3 sentyabr tarixlərində Bakıda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda IV Beynəlxalq Minatəmizləmə Konfransının keçirilməsi də bunu təsdiqləyir.

Konfrans Azərbaycanın mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina təhlükəsinin aradan qaldırılmasının təhlükəsiz və dayanıqlı bərpa prosesində rolu, innovativ yanaşma və qabaqcıl təcrübə mübadiləsi, həmçinin mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin səfərbər edilməsi yolları ətrafında müzakirələrin...

Bax səh. 5



## Rusiya Ermənistanı cəzalandıracaqmı?

Bax səh. 7

## Fransa Beynəlxalq Ədalət Məhkəməsinə verilib



Bax səh. 7

# İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq ATƏT məkanında mövcud münaqişələrdən birinin həll olunduğunu və regionda davamlı sülhün təmin edildiyini deyərək, bu xüsusda dövlətimizin başçısını Azərbaycanla Ermənistan arasında sülh gündəliyində qazanılmış nailiyyətlər münasibətilə təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı 30 ilə yaxın müddətdə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesində hər hansı bir nəticənin əldə edilmədiyini və BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin yerinə yetirilmədiyini təəssüflə vurğuladı.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan özü münaqişəyə hərbi-siyasi vasitələrlə son qoyub, ərazi bütövlüyünü və suverenliyini təmin edib.

Söhbət zamanı Avropanın bəzi parlament təsisatlarından fərqli olaraq, Azərbaycanın ATƏT Parlament Assambleyası ilə təmaslarından və siyasi dialoqdan məmnunluq ifadə edildi.

ATƏT Parlament Assambleyasının gündəliyində də bütün ATƏT məkanına balanslı münasibətin nümayiş etdirilməsinin önəmi vurğulandı.

Görüşdə mədəniyyətlərarası dialoqa toxunuldu, Azərbaycanın bu prosesdə rolu və töhfələri məmnunluqla qeyd edildi.

ATƏT Parlament Assambleyasının prezidenti Bakıda keçirilən "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının əhəmiyyətinə toxunaraq, minalar probleminin ATƏT Parlament Assambleyasının gündəliyində də müzakirə olunduğunu bildirdi.

## Tibb işçilərinin əməkhaqlarının artırılması bu sahəyə olan növbəti diqqətin təzahürüdür

# Dövlətin sosial qayğısı

Azərbaycanda səhiyyə sisteminin inkişaf etdirilməsi, bu sahədə qabaqcıl standartların tətbiqi, tibb işçilərinin sosial rifahının gücləndirilməsi daim dövlətin, ölkə başçısının diqqət mərkəzində olub, bu istiqamətdə ardıcıl sosial xarakterli tədbirlər həyata keçirilib. Tibb işçilərinin maddi rifahının yaxşılaşdırılması, əməyinin yüksək qiymətləndirilməsi və səhiyyə sistemində insan kapitalının gücləndirilməsi məqsədilə TƏBİB sistemində çalışan tibb işçilərinin əməkhaqlarının artırılması dövlətin bu sahəyə olan növbəti diqqətinin təzahürüdür.

### 72 mindən çox tibb işçisinin sosial rifahı naminə

Əməkhaqqı islahatı TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72212 tibb işçisinin sosial rifahına təsir göstərəcək. Onlardan 36041 nəfəri orta, 20367 nəfəri kiçik tibb heyəti, 8675 nəfəri ambulator tibbi xidmət göstərən həkimlər, 7 129 nəfəri isə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, habelə regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə çalışan həkimlərdir.

Əməkhaqqı artımları vəzifə, ixtisas, iş yükü, fəaliyyət göstəriciləri və regionlarda mövcud kadr təminatı nəzərə alınmaqla diferensiallaşdırılacaq. Yeni yanaşma tibb işçisinin peşəkarlığının, məsuliyyətinin və iş yükünün əməkhaqqında daha dolğun əks olunmasını, eyni zamanda fəaliyyət və keyfiyyət göstəriciləri vasitəsilə pasiyent məmnuniyyətinə müsbət təsirin gücləndirilməsini nəzərdə tutur. İslahat nəticəsində ilkin səhiyyə xidməti göstərən ailə həkimi və sahə həkimi vəzifələri üzrə çalışan həkim mütəxəssislərin aylıq əməkhaqqı 1150 manatdan 2000 manata çatdırılacaq. Bu, mövcud məbləğlə müqayisədə 850 manat və ya 74 faiz artım deməkdir.

Təcili tibbi yardım xidmətində çalışan həkimlər üçün də əhəmiyyətli artımlar nəzərdə tutulub. Respublika Təcili Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin (RTTTYM) həkiminin əməkhaqqı 1550 manatdan 2200 manata yüksələcək. Bununla yanaşı, tibb mərkəzlərinin təcili tibbi yardım şöbələrində çalışan həkimlərin aylıq əməkhaqqı 1550 manatdan 2500 manata yüksələcək. Beləliklə, artım 950 manat və ya 61 faiz təşkil edəcək. 3A və 3B kateqoriyalı tibb müəssisələrinin təcili tibbi yardım şöbələrində çalışan həkimlərin aylıq əməkhaqqı isə 2100 manatdan 3000 manata çatdırılacaq.




Eyni zamanda, əməkhaqqı qaydalarında həkimlərin həvəsləndirici ödənişlərini göstərilən tibbi xidmətin keyfiyyəti və pasiyent məmnunluğu ilə birbaşa bağlayan yeni yanaşma tətbiq edilir. İslahat tibbi xidmətlərin daha pasiyentyönümlü təşkilini və keyfiyyət göstəricilərinin maddi stimula çevrilməsini hədəfləyir. Xidmət keyfiyyəti nə qədər yüksək qiymətləndirilirsə, həkimin əldə etdiyi ödəniş də bir o qədər çox olacaq.

İslahat nəticəsində TƏBİB sistemi üzrə illik əməkhaqqı fondu 189 milyon manat artıb. Yeni əməkhaqqı qaydaları 2026-cı il sentyabrın 1-dən tətbiq olunacaq.

### Həvəsləndirici ödənişlərin verilməsi

Beləliklə, TƏBİB-in tabeliyində fəaliyyət göstərən səhiyyə müəssisələrində aparılan yeni islahatlar tibb işçilərinin sosial rifahının gücləndirilməsi, peşənin cəlbediciliyinin artırılması, həkimlərin regionlara cəlb edilməsinin stimullaşdırılması, fəaliyyət nəticələrinin daha dolğun qiymətləndirilməsi və göstərilən tibbi xidmətlər üzrə pasiyent məmnuniyyətinin yüksəldilməsinə səbəb olacaq.

İslahatın əsas istiqamətlərindən biri həkimlərin regionlara cəlb edilməsinin stimullaşdırılması və regionlarda kadr təminatının gücləndirilməsidir. Bu məqsədlə Bakı, Abşeron, Sumqayıt və Gəncə istisna olmaqla digər şəhər və rayonlarda kadr çatışmazlığının daha çox müşahidə edildiyi ixtisaslar üzrə xüsusi stimullaşdırıcı əlavələr tətbiq olunacaq. Belə ki, regionlarda çalışan uşaq anestezioloq-reanimatoloqlarının aylıq əməkhaqqı 1450 manatdan 3000 manata yüksələcək. Bu, 107 faiz artım deməkdir. Neonatoloqların əməkhaqqı 1450 manatdan 2400 manata çatdırılacaq ki, bu da 950 manat və ya 66 faiz artım deməkdir. Hemodializ həkimlərinin əməkhaqqı isə 1450 manatdan 2250 manata çatdırılacaq ki, bu da 800 manat və ya 55 faiz artım deməkdir. Həkim çatışmazlığı olan regionlarda mama-ginekologiya, neyrocərrahiyyə, uşaq cərrahiyyəsi, ürək-damar cərrahiyyəsi, üz-çənə cərrahiyyəsi və travmatologiya ixtisasları üzrə həkimlərin aylıq əməkhaqqı 1 450 manatdan 2 150 manata yüksələcək. Bu, əlavə 700 manat və ya 48 faiz artım deməkdir.



### Region həkimlərinin stimullaşdırılması və kadr təminatının gücləndirilməsi

Beləliklə, həkim çatışmazlığı olan regionlarda həkimlərin fəaliyyətinin stimullaşdırılması məqsədilə əlavə maliyyə mexanizmi də tətbiq olunacaq. Bakı, Abşeron, Sumqayıt və Gəncə istisna olmaqla, həkim çatışmazlığı olan regionlarda cərrahi tibbi xidmətlər, stasionar terapevtik tibbi xidmətlər, fizioterapiya və reabilitasiya xidmətləri, anesteziya xidmətləri, invaziv radioloji xidmətlər üzrə fəaliyyət nəticələrinə əsasən hesablanan işin nəticəsinə görə əlavə ödənişlərinə 1,3 əmsalı tətbiq ediləcək. Beləliklə, regionlarda çalışan həkimlər sabit əməkhaqqı artımı ilə yanaşı, işin nəticəsinə görə əlavə ödənişlərinə tətbiq olunan əmsaldan da faydalanacaqlar. Ambulator tibbi xidmətlər göstərən həkimlər üçün hər pasiyentə görə hesablanan mövcud kiçik faiz ödənişləri əvəzinə aylıq baxış sayına əsaslanan diferensiallaşdırılmış sabit əlavə tətbiq olunacaq.

**İslahatın əsas istiqamətlərindən biri həkimlərin regionlara cəlb edilməsinin stimullaşdırılması və regionlarda kadr təminatının gücləndirilməsidir. Bu məqsədlə Bakı, Abşeron, Sumqayıt və Gəncə istisna olmaqla digər şəhər və rayonlarda kadr çatışmazlığının daha çox müşahidə edildiyi ixtisaslar üzrə xüsusi stimullaşdırıcı əlavələr tətbiq olunacaq**

*E.CƏFƏRLİ*

# Azərbaycan-Ermənistan sülh gündəliyi müzakirə olunub

Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan ATƏT Parlament Assambleyasının Prezidenti Pere Xuan Pons Sampietro ilə görüşüb. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq gündəliyində duran məsələlər, ATƏT məkanında mövcud təhlükəsizlik çağırışları, regionda vəziyyət, habelə Azərbaycan-Ermənistan sülh gündəliyi müzakirə olunub.

C.Bayramov Azərbaycanın ATƏT Parlament Assambleyası ilə əməkdaşlığa əhəmiyyət verdiyini, parlamentlərarası dialoqun ATƏT məkanında qarşılıqlı anlaşmanın, etimadın və əməkdaşlığın təşviqində mühüm rol oynadığını qeyd edib. Bu çərçivədə, Azərbaycan Milli Məclisinin ATƏT PA çərçivəsində fəaliyyəti, qarşılıqlı səfərlər və müxtəlif səviyyələrdə keçirilən görüşlərin əlaqələrin inkişafına verdiyi töhfə vurğulanıb.

Nazir Azərbaycanın regionda sülhün və sabitliyin təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər barədə qarşı tərəfə məlumat verib. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində əldə olunmuş irəliləyişlər və sülh gündəliyinin irəli aparılması ilə bağlı Azərbaycanın mövqeyi diqqətə çatdırılıb.

Digər məsələlərlə yanaşı, postmünaqişə dövründə bölgədə mövcud olan humanitar məsələlərə toxunan nazir Ceyhun Bayramov mina təhdidinin hələ də Azərbaycan üçün ciddi təhlükə olaraq qaldığını bildirib. Mina partlayışlarının insan həyatı üçün yaratdığı təhlükə ilə yanaşı, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışına və regional inkişaf prosesinə mane olduğu qeyd edilib.

XİN başçısı həmçinin itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinin müəyyənləşdirilməsinin mühüm humanitar məsələ olduğunu vurğulayıb.



Görüşdə Azərbaycanın regional və daha geniş beynəlxalq enerji təhlükəsizliyinə töhfəsi barədə də fikir mübadiləsi aparılıb. Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rol, enerji mənbələrinin və marşrutlarının şaxələndirilməsi istiqamətində həyata keçirilən layihələr, habelə yaşıl enerji sahəsində təşəbbüslər barədə məlumat verilib.

Azərbaycanın nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkə kimi regional bağlantıların inkişafına verdiyi töhfə qeyd olunub. Orta Dəhlizin inkişafı, Xəzər üzərindən Avropa ilə Mərkəzi Asiyanı birləşdirən nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, eləcə də regional kommunikasiyaların açılmasının sülh, sabitlik və iqtisadi inkişaf baxımından əhəmiyyəti vurğulanıb.

Görüşdə həmçinin Azərbaycanın Orta Asiya ölkələri ilə strateji tərəfdaşlığının inkişaf edən dinamikasına da toxunulub. C5 formatının C6 formatına transformasiyasının əməkdaşlıq üçün yeni imkanlar yaratdığı qeyd edilib.

Görüşdə həmçinin ATƏT məkanında mövcud çağırışlar və qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dünya çoxqütblü nizama doğru...

## Azərbaycanın ŞƏT-də mühüm rolu

Hazırda dünya yeni transformasiya mərhələsindən keçir. İkinci Dünya müharibəsindən sonra yaranmış beynəlxalq təşkilatların, o cümlədən də BMT-nin nüfuzunun zəifləməsi fonunda çoxqütblü dünya nizamının formalaşdırılmasının zəruriliyi daha aydın görünür. Keçmiş ittifaqın süqutundan sonra beynəlxalq birlik təkqütblü dünya nizamının meydana çıxartdığı ciddi çağırışlarla üz-üzə qaldı və bunun fəsadlarını hələ də yaşamaqdadır. Qlobal miqyasda ədaləti, beynəlxalq prinsipləri yalnız qüvvələri balanslaşdırmaqla təmin etmək mümkündür. Dünyanın dəyişən nizamı, mövcud reallıqlar və çağırışlar yeni yanaşmalar tələb edir.

Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) yaranmasını yeni dünya nizamında meydana çıxan çağırışlara ən uyğun cavablardan biri kimi dəyərləndirmək mümkündür. Həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 15 iyun 2001-ci il tarixində Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. ŞƏT böyük coğrafiya və güclü iqtisadiyyat deməkdir. Bu il yaradılmasının 25-ci ildönümünü qeyd edən ŞƏT-ın sıralarında 10 tamhüquqlu, 2 müşahidəçi və 15 dialoq tərəfdaşı ölkəsi var. Təşkilatın əhatə etdiyi coğrafiya təxminən 36 milyon kvadratkilometr, üzv ölkələrin ümumi əhalisi isə 3,4 milyard nəfərdən çoxdur. Dünya Bankının 2025-ci il məlumatlarına əsasən, ŞƏT-in 10 üzv ölkəsinin ümumi nominal ÜDM-i təxminən 27,4 trilyon dollar təşkil edir ki, bu da dünya




### Yeni güc mərkəzi - ŞƏT-də böyük coğrafiya və güclü iqtisadi potensial birləşir

ÜDM-in təxminən 23,1 faizinə bərabərdir.

Təşkilatın üzvləri arasında Çin, Hindistan və Rusiya kimi qlobal iqtisadi və siyasi güclərlə yanaşı, İran və Pakistan kimi geostrateji əhəmiyyətli dövlətlər, həmçinin Mərkəzi Asiyanın Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan kimi ölkələri yer alır. Belarusun da üzvlüyü ilə ŞƏT-in Avrasiya miqyasında əhatə dairəsi daha da genişlənib.

ŞƏT bir tərəfdən dünyanın ən böyük əhali və istehlak bazarlarını, digər tərəfdən zəngin enerji və xammal resurslarına malik ölkələri, eyni zamanda, Avrasiyanın əsas quru nəqliyyat marşrutlarını bir platformada birləşdirir. Bu xüsusiyyət təşkilatın iqtisadi və geosiyasi əhəmiyyətini daha da artırır.

ŞƏT coğrafiyasında həm böyük enerji istehsalçıları, həm də dünyanın əsas enerji istehlakçıları yerləşir. Rusiya, İran və Qazaxıstan mühüm neft və qaz ehtiyatlarına malikdir. Çin və Hindistan isə qlobal enerji tələbatının əsas mərkəzləri sırasındadır.

Eyni zamanda, ŞƏT məkanı Şərqdən Qərbə, Şimaldan Cənuba uzanan əsas quru nəqliyyat istiqamətlərinin böyük hissəsini əhatə edir. Çin və Mərkəzi Asiyanın istehsal və ticarət mərkəzləri, Rusiya, İran və Hindistan istiqamətləri, Xəzər hövzəsi və Qərb bazarları arasında əlaqələrin genişlənməsi yeni logistika imkanlarını ön plana çıxarır.

Bir sıra hallarda obrazlı şəkildə belə deyirlər ki, ŞƏT, əslində, dünyanın yarısı deməkdir. Lakin qurumun önəmini yalnız coğrafiya ilə məhdudlaşdırmaq doğru olmazdı. Bu gün təşkilat real olaraq dünyada təkqütblülüyü sındıran yeni bir güc mərkəzidir. Ötən 25 ildə təşkilat daxilində ciddi institusional formalaşma prosesi gedib, hüquqi çərçivələr yaradılıb və ən əsası da üzv dövlətlər arasında siyasi və iqtisadi əlaqələr genişlənib ki, bu da böyük bir coğrafiyada qarşılıqlı inam, etimad mühitinin bərqərar olması anlamına gəlir. Qeyd edək ki, təşkilatın bəyan olunan əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir.

ŞƏT-in 2035-ci ilədək İnkişaf Strategiyası təşkilatın gələcək istiqamətlərini də müəyyənləşdirir. Sənəddə təhlükəsizliklə yanaşı, ticarət, iqtisadiyyat və investisiya əməkdaşlığının genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi, elm və texnologiya, səhiyyə, ətraf mühit və təhsil sahələrində əlaqələrin inkişafı prioritet kimi göstərilir.

### Azərbaycana göstərilən böyük etimad

Qürurverici haldır ki, bu gün müstəqil Azərbaycan geniş ŞƏT ailəsində yer alır. Xatırladaq ki, 2015-ci ilin 9-10 iyul tarixlərində Rusiyanın Ufa şəhərində keçirilmiş ŞƏT-in Zirvə toplantısı zamanı qəbul edilmiş qərara əsasən Azərbaycana ŞƏT-də dialoq üzrə tərəfdaş statusu verilib. Prezident İlham Əliyev 17 may 2016-cı il tarixində “Azərbaycan Respublikasına Şanxay Əməkdaşlıq Təşkilatının dialoq üzrə tərəfdaşı statusunun verilməsi haqqında” Memorandumu təsdiqləyib. Həmin vaxtdan etibarən dövlətimizin başçısı ŞƏT-n Zirvə görüşlərində xüsusi dəvət əsasında iştirak edir. Həmçinin Prezident İlham Əliyev qurumun dost Qırğızıstanın paytaxtı Bişkekdə baş tutan son Zirvə görüşündə iştirak və çıxış edib.

Azərbaycanın ŞƏT-lə sıx əməkdaşlığa cəlb olunması bir sıra mühüm amillərlə şərtlənir. Bu, ilk növbədə ölkəmizin qısa müstəqillik tarixində yüksək beynəlxalq nüfuz qazanması ilə bağlıdır. Prezident İlham Əliyev respublikamızın xarici siyasət kursunu çoxvektorluluq prinsipi əsasında müəyyənləşdirib. Bu çərçivədə həyata keçirilən siyasət öz bəhrəsini verir. Bu gün Azərbaycan Ermənistan istisna olmaqla bütün qonşu dövlətlərlə yüksəksəviyyəli münasibətlərə malikdir. Ölkəmiz müxtəlif beynəlxalq platformalarda, o cümlədən də Qoşulmama Hərəkatında yüksək fəallıq göstərməklə İslam dünyasında böyük nüfuz qazanıb. Avropa İttifaqının üzvü olamayan Azərbaycan bu məkanda 10 dövlətlə strateji tərəfdaşlıq sənədi imzalayıb. Ağ Evdə administrasiya dəyişikliyindən sonra ölkəmizlə dünyanın bir nömrəli güc mərkəzi sayılan Amerika Birləşmiş Ştatları (ABŞ) arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib. Artıq Azərbaycanla ABŞ strateji əməkdaşlığı hədəfləyən sənəd imzalayıblar. Eləcə də respublikamızın ŞƏT-də təmsil olunan ayrı-ayrı Asiya dövlətləri ilə yüksəksəviyyəli ikitərəfli münasibətləri formalaşıb.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanla Mərkəzi Asiya vahid siyasi və iqtisadi məkan kimi çıxış edirlər. Eyni zamanda, Asiya nəhəngi Çinlə münasibətlərimiz son illərdə imzalanan sənədlərə uyğun olaraq strateji tərəfdaşlıq çərçivəsində inkişaf edir və hər iki tərəf də bundan məmnundur.

Dünyanın müxtəlif məkanlarında, o cümlədən də ŞƏT coğrafiyasında Azərbaycana belə yüksəksəviyyəli etimad göstərilməsi ilk növbədə ölkəmizin siyasəti və Prezident İlham Əliyevin hər zaman beynəlxalq həmrəylik təşəbbüslərindən çıxış etməsi ilə bağlıdır. Qalib Azərbaycanın müharibə başa çatdıqdan sonra sülh təşəbbüsündən çıxış etməsi bütün dünya üçün bir nümunədir. Hazırda dünya Yaxın Şərqdə, Şərqi Avropada uzanan müharibələrin yaratdığı ağır fəsadlardan ciddi şəkildə təsirlənir. Azərbaycan öz nümunəsində təsdiqlədi ki, müharibə səhifəsini bağlamaq və imkanları əməkdaşlığa, sabitliyə yönəltmək lazımdır. Yalnız bu halda inkişafa və rifaha nail olmaq mümkündür.

> **Dünyanın müxtəlif məkanlarında, o cümlədən də ŞƏT coğrafiyasında Azərbaycana belə yüksəksəviyyəli etimad göstərilməsi ilk növbədə ölkəmizin siyasəti və Prezident İlham Əliyevin hər zaman beynəlxalq həmrəylik təşəbbüslərindən çıxış etməsi ilə bağlıdır. Qalib Azərbaycanın müharibə başa çatdıqdan sonra sülh təşəbbüsündən çıxış etməsi bütün dünya üçün bir nümunədir. Hazırda dünya Yaxın Şərqdə, Şərqi Avropada uzanan müharibələrin yaratdığı ağır fəsadlardan ciddi şəkildə təsirlənir. Azərbaycan öz nümunəsində təsdiqlədi ki, müharibə səhifəsini bağlamaq və imkanları əməkdaşlığa, sabitliyə yönəltmək lazımdır. Yalnız bu halda inkişafa və rifaha nail olmaq mümkündür**

### Siyasi dialoqun genişləndirilməsi

Azərbaycan sıralarında yer aldığı əksər beynəlxalq təşkilatlarda yüksək fəallıq nümayiş etdirməklə onların funksionallığının artmasına güclü impuls verir. Bu cəhətdən ŞƏT də istisna deyil. Prezident İlham Əliyev Bişkekdə baş tutan yubiley Zirvə tədbiri çərçivəsində də öz ənənəsinə sadiq qalmaqla yüksək diplomatiya sərgilədi. Dövlətimizin başçısının tədbir çərçivəsində çoxsaylı görüşlər keçirməsi xüsusi diqqət çəkir. Çox doğru olaraq ekspert dairələrində bu görüşlər Azərbaycanın və onun Liderinin dünya miqyasında artan nüfuzunun göstəricisi kimi dəyərləndirilir. Məsələn, Vladimir Putinlə təmas Azərbaycan-Rusiya münasibətlərinin, Rəcəb Tayyib Ərdoğanla görüş Türk dünyası və Azərbaycan-Türkiyə müttəfiqliyinin, Məsud Pezeşkianla görüş İranla əlaqələrin, Kasım-Jomart Tokayevlə görüş Mərkəzi Asiya istiqamətinin əhəmiyyətini təsdiqləyir. Hindistanın Baş naziri Narendra Modi ilə təmas isə Azərbaycanın Cənubi Asiyanın böyük iqtisadi və siyasi gücləri ilə əlaqələrinin geniş perspektivlərə malik olduğuna bir işarədir. Hindistanla münasibətlərimiz hələlik arzuedilən səviyyədə deyil, ancaq ölkəmiz o mövqedən çıxış edir ki, dialoqu inkişaf etdirmək lazımdır. Nikol Paşinyanla görüş isə xüsusi məna daşıyır. Bir vaxtlar Azərbaycan və Ermənistan liderlərinin ikitərəfli görüşü çətin baş tutardı və mütləq qaydada vasitəçilərin köməyinə ehtiyac yaranırdı. Məhz qalib Azərbaycanın sülhə sadiqliyi sayəsində tənzimləmə prosesində böyük yol keçilib və artıq liderlər vasitəçilər olmadan ikitərəfli təmaslar qururlar. Bu, Cənubi Qafqazda real sülhün daha bir mühüm göstəricisidir ki, bunun da müəllifi məhz Azərbaycan Prezidentidir.

Azərbaycanın dövlət başçısının görüşdəki çıxışında ifadə etdiyi fikirlər və verdiyi mesajlar həm ŞƏT coğrafiyası, həm də bütün dünya üçün əhəmiyyətlidir. Azərbaycan Prezidenti çıxışında Cənubi Qafqazda da mühüm dəyişikliklərin baş verdiyini bildirib. Onun sözlərinə görə, uzun illər münaqişə zonası olan region hazırda sülh və əməkdaşlıq məkanına çevrilir. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini həyata keçirir. Ölkəmizin Cənubi Qafqazda yaratdığı reallıqlar dünya üçün bir nümunədir.

Dövlətimizin başçısı, həmçinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrasını təmin edən mexanizmlərin hazırlanmasının təşkilatın nüfuzunu daha da artıracağını qeyd edib. Azərbaycan BMT-nin təxminən 30 il ərzində yerinə yetirilməyən qətnamələrinin icrasını özü təkbaşına təmin etdi. Bundan nəticə çıxarılmalı və dünyada nizamsızlıq mühiti yaradan ikili standartlar son qoyulmalıdır. Elə bir mexanizm formalaşdırılmalıdır ki, dünya ayrı-ayrı güc mərkəzlərinin selektiv yanaşmaları ilə deyil, BMT tərəfindən müəyyənləşdirlən ümumi prinsiplər əsasında ədalətlə idarə olunsun.

### Azərbaycanın yaratdığı enerji və nəqliyyat infrastrukturunun böyük önəmi

Azərbaycan ŞƏT məkanında və ondan kənarda yer alan dövlətlər üçün son dərəcə əlverişli coğrafiyada yerləşir. Ölkəmiz Şərqlə Qərb arasında təbii körpü qismində çıxış edir. Lakin Azərbaycanın ŞƏT məkanı üçün önəmi yalnız coğrafiya ilə bağlı deyil. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında yer alan dövlətlər üçün geniş nəqliyyat-logistika imkanları təqdim etmək iqtidarında olan dövlətdir. Bu gün artan geosiyasi gərginliklər səbəbindən beynəlxalq nəqliyyat marşrutları heç də təhlükəsiz deyil. Son olaraq Hörmüz boğazı ilə bağlı izlənilən proseslər, qlobal iqtisadiyyat üçün mühüm əhəmiyyət daşıyan dar keçidin siyasi təzyiq alətinə çevrilməsi bütövlükdə dünyanı ciddi sınaq qarşısında qoyub. Müşahidə edilən bu kimi kataklizmlər daşıma şirkətlərini alternativ nəqliyyat-logistika marşrutları axtarmaq məcburiyyətində qoyub. Daha təhlükəsiz və iqtisadi baxımdan səmərəli marşrutların önəmi heç vaxt olmadığı qədər artıb.

Belə, heç də adi olmayan bir şəraitdə nəzərlər həm də Azərbaycana dikilib. Bu, bir tərəfdən respublikamızın Avrasiyada son dərəcə əlverişli coğrafi mövqedə yerləşməsi, uzunmüddətli daxili sabitliyə malik olması, cəmiyyətdə tolerantlıq mühitinin hökm sürməsi, digər tərəfdən isə geniş nəqliyyat-logistika imkanları təqdim etməsi ilə bağlıdır. Prezident İlham Əliyev son 22 ildə ölkəmizin əlverişli coğrafi mövqeyini nəzərə almaqla strateji baxış nümayiş etdirərək qeyd olunan sahənin inkişafına həssas yanaşma sərgiləyib. Onun qətiyyətli siyasi iradəsi ilə ölkə boyunca böyük həcmlərdə investisiya qoyuluşu hesabına çoxsaylı nəqliyyat-logistika layihələri uğurla icra olunub və respublika ərazisindən keçən bütün marşrutlar üzrə tranzit daşımalarının optimal vaxt rejimində səmərəli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradılıb.

Azərbaycanın ŞƏT üçün digər bir mühüm önəmi ölkəmizin zəngin eneri resurslarına və şaxələndirilmiş nəqli marşrutlarına malik olmasıdır. Təchizat yollarına yaranan təhdidlər son vaxtlarda Yaxın Şərqdə və Şərqi Avropada uzanan müharibələrin ən ağır fəsadları sırasında yer alır. Xüsusilə də ABŞ-İran müharibəsindən əvvəlki mərhələdə qlobal enerji təchizatının təxminən 20 faizini təmin edən Hörmüz boğazı ətrafında yaranan qeyri-müəyyənlik bütün dünyanı ciddi sınaq qrşısında qoyub.

Ayrı-ayrı təchizat yollarının təhdid altında qaldığı bir vaxtda Azərbaycan nefti üç marşrutla dünya bazarlarına çıxarılır. Ölkəmizin əsas neft ixrac marşrutu Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməridir. Zamanında Azərbaycanın starteji yanaşmalar sərgiləməklə inşasına nail olduğu nəql marşrutları hazırda yalnız ölkəmizə xidmət etmir, eyni zamanda bundan Xəzərin digər sahillərində yerləşən dövlətlər də faydalanırlar. 1768 kilometr uzunluğunda olan BTC 2006-cı ilin iyun ayında istismara veriləndən cari ilin iyun ayının sonunadək bu boru kəməri vasitəsilə tranzit daşımaları da daxil olmaqla ümumilikdə təqribən 631 milyon ton (4,7 milyard bareldən çox) xam neft nəql edilib və Ceyhanda 6276 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Mərkəzi Asiya dövlətlərinin həmçinin Azərbaycanın moderatorluğu ilə inşa olunan Cənub Qaz Dəhlizindən istifadə etmək imkanları da tam realdır və hazırda bununla bağlı müzakirələr aparılır.

Yaşıl enerji əməkdaşlığı Azərbaycanla ŞƏT-də təmsil olunan Çin, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər ölkələr arasında münasibətlərin növbəti bir perspektivli istiqaməti təşkil edəcək. COP29 çərçivəsində Azərbaycan, Özbəkistan və Qazaxıstan bərpaolunan enerjinin nəqli ilə bağlı mühüm sənəd imzalayıblar. Eyni zamanda, ölkəmiz bu sahədə Çinlə geniş əhatə dairəsinə malik olan əlaqələr qurub və bu sahədə əməkdaşlığın böyük perspektivi var.

***Mübariz ABDULLAYEV***

# Daşınmaz əmlakla bağlı yeni qaydalar

## Əmlakın kəmiyyət və keyfiyyət göstəriciləri dövlət kadastrına daxil ediləcək

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlara dəyişikliklər təsdiq edilib. Daşınmaz əmlakla bağlı yeni qaydalar "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" qanunun 5.3-cü maddəsinə uyğun olaraq hazırlanıb və daşınmaz əmlakın dövlət kadastrı sahəsində yaranan münasibətləri tənzimləyir. Həmin əmlakın kadastr uçotuna alınması daşınmaz əmlakın kəmiyyət və keyfiyyət göstəricilərinin dövlət kadastrına daxil edilməsi ilə onun mövcudluğunun dövlət tərəfindən müəyyən edilməsi hesab olunur.

Qaydalarda təsbit olunduğu kimi dövlət kadastrı Əmlak Məsələləri Dövlət Xidməti "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi vasitəsilə aparılır. Əmlaka dair sahəvi kadastrlarda saxlanılan məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə dövlət kadastrına inteqrasiya edilir. Bu o deməkdir ki, sistem vasitəsilə müvafiq dövlət orqanından əldə edilən məlumatlar əsasında əmlakın qeydiyyatı üzrə sənədləşmələrin aparılması təmin olunur.

Kadastrın aparılması qaydaları və prinsipləri faktiki olaraq əmlaka rəsmi dövlət sənədinin, yəni uçota alma ilə əmlakın çıxarış hüququnun verilməsi deməkdir. Kadastr uçotuna alma əmlakın kəmiyyət və keyfiyyət göstəricilərinin kadastr sisteminə daxil edilməsi ilə onun mövcudluğunun dövlət tərəfindən müəyyən edilməsi sayılır.

Daşınmaz əmlak obyektinin eyniliyini müəyyənləşdirmək üçün kifayət qədər məlumat olmadıqda və ya ərizədə göstərilən məlumatın düzgünlüyünü müəyyən etmək mümkün olmadıqda obyektə onun olduğu yer üzrə baxış keçirilir, dəqiqləşdirilməsi məqsədi ilə obyektdə çöl geodeziya ölçmə işləri aparılır. İlkin araşdırmanın nəticələrindən asılı olaraq daşınmaz əmlak obyektinin vahid dövlət kadastr uçotuna alınması ilə bağlı müvafiq kameral işlər həyata keçirilir və kadastr uçotuna alınma barədə məlumat dərhal istifadəçinin elektron ünvanına, kağız üzərində əsli isə poçt vasitəsilə poçt ünvanına göndərilir və ya birbaşa istifadəçiyə təqdim edilib.



### 100 mindən çox evin sənədləşməsi mümkün olub

Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayev bildirib ki, son 10 il ərzində 100 mindən çox fərdi yaşayış evinin dövlət qeydiyyatına alınması mümkün olub, daha 55 mindən çox mənzil isə mülkiyyət sənədləri ilə təmin edilib. Dövlət başçısının qəbul etdiyi qərarlar və imzaladığı fərmanlar nəticəsində sənədsiz yaşayış evlərinin sayının əhəmiyyətli dərəcədə azaldılmasına nail olunub. Xatırladaq ki, Prezidentin 13 yanvar 2015-ci il tarixli fərmanına əsasən, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna dəyişikliklər edilib, əvvəllər qeydiyyata alınması mümkün olmayan bir sıra fərdi yaşayış evləri və həyətyanı torpaq sahələrinin rəsmiləşdirilməsi üçün hüquqi imkan yaradılıb. Sovet dövründə və müstəqilliyin ilk illərində müxtəlif təşkilatlar və dövlət qurumları tərəfindən vətəndaşlara müəyyən sənədlər təqdim edilsə də, əvvəlki qanunvericilik həmin sənədlər əsasında ev və torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatına alınmasına imkan vermirdi. Ancaq həmin fərman bu maneəni aradan qaldıraraq həmin sənədlərə hüquqi əsas statusu verilməsini təmin etdi. Dövlət arxivlərində mövcud olan sənədlər, habelə əvvəlki inventar bürolar və digər müvafiq qurumlar tərəfindən verilmiş sənədlər nəzərə alınmaqla, əmlakın leqallaşdırılması elektronlaşdırılıb. Bu hüquqi çərçivəyə əsasən, Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2 il əvvəl istifadəyə verilmiş e-portal daşınmaz əmlakın qeydiyyatının rəsmiləşdirilməsini təmin edən vahid sistem kimi bu istiqamətdə kadastr və qeydiyyat işlərini xeyli asanlaşdırıb. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna ötən il edilmiş yeni dəyişikliklər də qeydiyyatla bağlı bir çox məsələləri həll edib, on minlərlə vətəndaşın mövcud sənədlər əsasında əmlak hüquqlarının tanınması imkanı yaradılıb.

### Məhkəmə tanısa da, Əmlak Xidməti tanımayacaq

Təhlükəli özbaşına tikililərin rəsmiləşdirilməsi hətta məhkəmə yolu ilə də mümkün hesab edilmir. Məhkəmə həmin tikiliyə müsbət rəy versə də, Əmlak Xidməti çıxarış verməyəcəyini bəyan edir: "Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsi vətəndaşların təqdim etdiyi hüquqmüəyyən-



edici sənədlərin ekspertizasını həyata keçirir və həmin sənədlər əsasında hüquqları dövlət qeydiyyatına alır. Təqdim edilən sənədlərin məzmunu, forması, imza və möhürləri qanunvericiliyin tələblərinə uyğun və həqiqi olduğu halda müraciət müsbət cavablandırılır və daşınmaz əmlak üzərində hüquq qeydiyyata alınır. Sənədlərdə çatışmazlıq olduqda, sənədlərin həqiqiliyi təsdiqlənməddikdə və ya torpaq sahəsinin zəbt edildiyi müəyyənləşdirildikdə isə qeydiyyat üçün hüquqi əsas yaranmır. Əmlak Məsələləri Dövlət Xidməti və onun tabeli strukturu hüquqmüəyyənedici sənəd olmadan sənəd vermək niyyətində deyil".

Xidmət kənd təsərrüfatı təyinatlı, meşə və su fondu torpaqlarında və xüsusi qorunan ərazilərdə ümumiyyətlə əmlakın qeydiyyatına dair kadastr işlərinin aparılmasının qeyri-mümkünlüyünü bəyan edir. Kənd təsərrüfatı təyinatlı torpaqlarda isə yalnız qanunvericiliyin nəzərdə tutduğu kənd təsərrüfatı məqsədli tikili və qurğular inşa edilə bilər. Belə tikintilər üçün torpaq sahəsinin ən azı 5 hektar olması tələb edilir və tikilinin əhatə etdiyi sahə ümumi torpağın 1 faizindən çox ola bilməz. Başqa sözlə, 5 hektarlıq torpaq sahəsində belə tikilinin sahəsi maksimum 500 kvadratmetr ola bilər. Fərdi yaşayış və çoxmənzilli yaşayış binalarının kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilməsi isə qanunla qadağandır.

Bir sözlə, kollektorların və qaz xətlərinin, mühəndis-kommunikasiya infrastrukturu obyektlərinin yerləşdiyi ərazilərdə və onların mühafizə zonalarında inşa edilən yaşayış evlərinin çıxarış almasını gözləməyə dəyməz.

### Rəsmiləşdirilməsi mümkün hesab edilməyən əmlaklar

Həmin portalda ancaq müvafiq rəy və icazə əsasında sənədləri qaydasında olan evlərin və mənzillərin portal üzərindən rəsmiləşdirilməsi, yəni mülkiyyət hüququna dair çıxarışın (kupça) alınması mümkündür. İnsan sağlamlığı və fəaliyyətinə təhlükə törədən ərazilərdə tikilmiş evlərin kadastrı və rəsmiləşdirilməsi mümkün hesab edilmir, çünki onlar tələblərə cavab verməyən əmlak hesab edilir. Həmin evlər mühəndis-kommunikasiya xətlərinin üzərində və yaxınlığında, yüksək gərginlikli elektrik xətlərinin altında, digər kommunikasiya qurğularının ətrafında, eləcə də dəmiryol xəttinin yaxınlığında inşa edildiyindən riskli hesab olunur. Əksəriyyətinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən müəyyənedici aktı yoxdur.

Mətin Eynullayev hesab edir ki, sənədsiz evlər kimi qiymətləndirilən həmin yaşayış sahələri iki əsas kateqoriyaya bölünür. Birinci qrupa müəyyən sənədləri olan, lakin həmin sənədləri hüquqi baxımdan legitim hesab edilməyən evlər daxildir. İkinci qrupa isə ümumiyyətlə heç bir hüquqmüəyyənedici sənədi olmayan və özbaşına inşa edilmiş tikililər aiddir. Dövlət Xidməti bu evlərin nəzərdə tutulmayan torpaq sahəsində və qanunvericiliklə tələb olunan icazələr alınmadan tikilməsini, həmçinin, tikinti norma və qaydalarının pozulmasını əsas gətirərək bu sahələri Mülki Məcəllənin 180.1-ci maddəsinə əsasən, özbaşına tikinti sayır.

**E.CƏFƏRLİ**

# Bakı II Beynəlxalq İnvestisiya Forumu astanasında

## Əlverişli coğrafi mövqe və iqtisadi sabitlik ölkəmizi regionun cəlbedici investisiya mərkəzinə çevirib

Sentyabrın 25-26-da Bakıda II Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçiriləcək. Forum institusional xarakter alan və Azərbaycanın uzunmüddətli investisiya strategiyasının mühüm platformasına çevrilən genişmiqyaslı, strateji proqram olduğunu təsdiqləməklə, yeni layihələrin təqdimatını həyata keçirmək, regional əməkdaşlığı genişləndirmək və Azərbaycanın Şərq ilə Qərb arasında iqtisadi körpü rolunu praktik layihələr vasitəsilə nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu 2025-ci il sentyabrın 22-23 tarixlərində İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı, Avropa Evi - "Ambrosetti"nin (TEHA) strateji tərəfdaşlığı, həmçinin "Euronews"in media və təşkilati dəstəyi ilə Bakıda keçirilib. Forum dövlət rəsmiləri, biznes liderləri və beynəlxalq investorları bir araya gətirib.




### Qlobal investorlar üçün strateji platforma

Forumda regionların strateji inteqrasiyası, tranzit imkanları, enerji və infrastruktur layihələri, innovasiyalar, "yaşıl" enerji, daşınmaz əmlak, şəhərsalma və dayanıqlı inkişaf mövzularında plenar iclas və dörd panel sessiyası baş tutub. Tədbirin ikinci günü isə dövlət-özəl tərəfdaşlığı, maliyyə, səhiyyə, biotexnologiya, əczaçılıq və rəqəmsal sağlamlıq, kənd təsərrüfatı, aqrobiznes, ərzaq sənayesi, sənayeləşmə, kiçik və orta sahibkarlıq, "yaşıl" keçid, eləcə də sahibkarlığın inklüzivliyi mövzularına həsr olunan panel sessiyaları keçirilib. Bu isə investorlar arasında sərmayə bağlantılarının təşviqi və reallaşması baxımından mühüm əhəmiyyət kəsb edib.

Birinci İnvestisiya Forumu ötən il mühüm sənədlərin imzalanması baxımından da əlamətdar olub. Belə ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanan "Şəhər içində şəhər" Konsepsiyasının inkişafı üzrə əməkdaşlıq sazişi imzalanıb ki, müasir şəhərsalma prinsipləri, "yaşıl şəhərsalma"ya keçid və digər qabaqcıl sənaye texnologiyalarının tətbiqi üçün imkanlar yaradır. Habelə, Azərbaycan və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında "Xəzər dənizində Suyun Duzsuzlaşdırılması Zavodunun layihələndirilməsi, tikintisi, istismarı və texniki xidməti üzrə saziş" imzalanıb. Saziş dizayn, tikinti, maliyyələşdirmə, istismar və texniki xidmət mərhələlərini əhatə edir. Layihə regionda su ehtiyatlarının səmərəli idarə olunmasına və içməli su təminatının artırılmasına yönəlib. Bundan əlavə, forumda "Emal olunmuş suyun alınmasına dair saziş" sənədi də imzalanıb.

### Təşkilat Komitəsi - İnvestisiya siyasətinin beynəlxalq təqdimatı

Birinci forumun yaratdığı əməkdaşlıq mühiti və əldə olunan razılaşmalar fonunda Azərbaycan növbəti Beynəlxalq İnvestisiya Forumunu təşkil etməyi qərara alıb. Bu baxımdan, II Azərbaycan Beynəlxalq İnvestisiya Forumu nümunəvi format kimi artıq ənənəyə çevrilən biznes ailəsinin Bakı platforması kimi xarakterizə oluna bilər. Yeri gəlmişkən, bir müddət əvvəl Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla Forumun Təşkilat Komitəsi yaradılıb. Komitənin tərkibinə xarici işlər, maliyyə, mədəniyyət, daxili işlər, fövqəladə hallar, səhiyyə, ekologiya və təbii sərvətlər, rəqəmsal inkişaf və nəqliyyat, energetika nazirləri, eləcə də bir sıra dövlət qurumlarının rəhbərləri daxil edilib. Sərəncamda qeyd olunur ki, Azərbaycanın iqtisadi və investisiya potensialının beynəlxalq səviyyədə təşviqi, əlverişli biznes və investisiya mühitinin daha da təkmilləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin olunması və ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasının gücləndirilməsi dövlətin sosial-iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindəndir.

Beləliklə, Təşkilat Komitəsinin yaradılması forumun tədbirdən daha çox, Azərbaycanın investisiya siyasətinin beynəlxalq səviyyədə təqdimatına xidmət edən davamlı platformaya çevrilməsi istiqamətində institusional addım kimi qiymətləndirilə bilər. 2025-ci ildə qurulan əməkdaşlıq əlaqələrinin davam etdirilməsi və yeni investorların cəlb olunması baxımından ikinci forumun keçirilməsi Azərbaycanın investisiya strategiyasında mühüm hadisələrdən biri olacaq.

### İqtisadiyyata 350 milyard dollar investisya qoyulub

Müstəqilliyi qazandıqdan etibarən Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm verərək dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Əlverişli coğrafi mövqeyi və iqtisadi sabitliyi ilə seçilən ölkəmiz regionun cəlbedici investisiya mərkəzlərindən birinə çevrilib. Ölkənin sabit iqtisadi mühiti investor etimadını gücləndirir. Azərbaycan investorlara güclü fiskal göstəricilər və iqtisadi siyasətlə dəstəklənən sabit və dayanıqlı iqtisadi mühit təqdim edir. Sağlam və münbit investisiya iqlimi sayəsində 2004-2025-ci illər ərzində iqtisadiyyata 350 milyard dollardan çox sərmayə qoyulub, onun əhəmiyyətli hissəsi və ya 220 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilib. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

Hazırda Azərbaycanda minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir. Əldə edilmiş dayanıqlı etimad sayəsində əksər xarici şirkətlər mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya etməyi düzgün yol kimi seçməkdədir.

Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyuldu. Hazırda Azərbaycan xarici siyasətində artıq iqtisadi diplomatiyaya üstünlük verərək diqqətini yeni əməkdaşlıq əlaqələrinin qurulmasına, qeyri-neft sahələrinin, xüsusilə də ölkənin turizm potensialının daha da güclənməsinə istiqamətləndirir.

Ölkəmizdə iqtisadi artımın uzunmüddətli sabit trendə çevrilən qeyri-neft sektoru əsas inkişaf drayveri kimi həm yerli, həm də xarici investorların diqqətini cəlb edir. Qeyd edək ki, 2021-2025-ci illərdə qeyri-neft sektoru hər il orta hesabla 6-7 faiz artıb və ümumi iqtisadiyyatda payı 70 faizə yüksəlib. Eləcə də qeyri-neft ixracı son altı ildə demək olar ki, iki dəfə artıb. Bu amil də ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsinin əyani göstəricisidir.

### "Fitch" və "Moodys"un reytinqi yüksəlib

Qabaqcıl biznes ideyalarının tətbiqi, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və həyata keçirilən islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 82 faizə yüksəlib. İqtisadiyyatın davamlı inkişafı əhalinin rifahını yüksəltmiş və ölkənin maliyyə gücünü artırıb. Son 23 ildə dövlət büdcəsinin gəlirləri 24 dəfə, strateji valyuta ehtiyatları 25 dəfədən çox artıb, dövlətin xarici borcunun ümumi daxili məhsula nisbəti isə 6 faizə düşərək dünya üzrə ən aşağı göstəricilərdən birinə çevrilib.

Azərbaycanın güclü maliyyə bazasına, makroiqtisadi və makromaliyyə sabitliyinə, əlverişli biznes mühitinə malik olması dünyanın nüfuzlu institutlarının hesabatlarında da öz əksini tapır. "Dünya Bankının 'Business Ready" sorğusunun nəticələri, eləcə də aparıcı beynəlxalq kredit reytinq agentliklərinin qərarları göstərir ki, Azərbaycanın mövqeyi son illərdə əhəmiyyətli dərəcədə yaxşılaşıb. "Fitch" və "Moodys" beynəlxalq reytinq agentlikləri ölkəmizin reytinqini investisiya dərəcəsinə yüksəldib.

### Yeni sərmayələrin cəlbi üçün əlverişli fürsət

Ölkəmizdə qanunun aliliyinin təminatı, hökm sürən siyasi sabitlik və sərmayələrin qorunması iqtisadi siyasətimiz üçün fundamental amil rolunu oynayır və investorlar üçün uzunmüddətli etimad mühiti yaradır. İnvestorların hüquq və mənafelərinin qorunması, yerli və xarici sahibkarlara əlverişli münbit şəraitinin yaradılması, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyinin artırılmasında yeni mərhələ açıb.

Yaradılmış infrastruktur və hüquqi təminatlar əsasında Azərbaycan biznes layihələrini dəstəkləməyə, texnologiya, investisiya və təcrübə gətirən tərəfdaşlıqları irəli aparmağa tam hazırdır. Eyni zamanda, dövlət-özəl tərəfdaşlıq mexanizmləri sərmayədarlara dayanıqlı layihələrə qoşulmaq imkanı verir. Ənənəvi enerji sahəsindəki uğurlarımız bu gün rəqəmsal iqtisadiyyat və texnoloji transformasiya ilə tamamlanır. Bulud texnologiyalarının genişləndirilməsi, rəqəmsal məlumat infrastrukturunun inkişafı və innovativ həllərin iqtisadiyyatın əsas sahələrinə inteqrasiyası Azərbaycanın gələcəkdə yüksək texnologiyalar və süni intellekt sahəsində strateji mərkəz rolunu oynamaq üçün mövqelərini daha da möhkəmləndirir.

Bütün bu mühüm amillər beynəlxalq sərmayə ailəsinin Azərbaycana olan marağını, investisiya təşviqlərini daha da artırır. Məhz bu baxımdan ölkəmizdə keçiriləcək İkinci İnvestisiya Forumu beynəlxalq əməkdaşlıq və sərmayə cəlbini daha da genişləndirəcək.

**E.CƏFƏRLİ**

# Minatəmizləmə fəaliyyəti milli prioritetlər sırasında...

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. Ölkəmiz bu problemi dünya ictimaiyyətinə çatdırmaq üçün müxtəlif addımlarla yanaşı, beynəlxalq konfranslar da təşkil edir.

2-3 sentyabr tarixlərində Bakıda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda IV Beynəlxalq Minatəmizləmə Konfransının keçirilməsi də bunu təsdiqləyir.

## 60 ölkədən 400-dən çox nümayəndə iştirak etdiyi beynəlxalq konfrans...

Konfrans Azərbaycanın mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina təhlükəsinin aradan qaldırılmasının təhlükəsiz və dayanıqlı bərpa prosesində rolu, innovativ yanaşma və qabaqcıl təcrübə mübadiləsi, həmçinin mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin səfərbər edilməsi yolları ətrafında müzakirələrin aparılması məqsədi daşıyır. Bakının ev sahibliyi etdiyi IV Beynəlxalq Minatəmizləmə Konfransında ümumilikdə 60 ölkədən 400-dən çox nümayəndə iştirak edib. İştirakçılar arasında bir sıra ölkələrin yüksək vəzifəli şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən BMT-nin nümayəndələri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmiləri, habelə Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri təmsil olunublar.

Qeyd edək ki, tədbirin açılış mərasimində Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciəti səsləndirib. Müraciətdə vurğulanıb ki, münaqişədən sonra ərazilərdə şəhərlərin bərpası binaların, yolların və ictimai infrastrukturun yenidən qurulması ilə yanaşı, təhlükəsizliyin və inamın bərqərar olmasını tələb edir. Torpaqlar minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənməyincə heç bir şəhər, kənd və ya qəsəbə tam şəkildə yenidən qurula, heç bir məktəb və ya xəstəxana təhlükəsiz fəaliyyət göstərə, heç bir ailə öz yurduna ləyaqətlə geri qayıda və heç bir iqtisadi fəaliyyət davamlı inkişaf edə bilməz. Buna görə də humanitar minatəmizləmə şəhərlərin bərpasının və təhlükəsiz yaşayış məskənlərinin yaradılmasının təməlində dayanır. Azərbaycan bu çağırışın ən ağır təzahürü ilə üzləşib. Ermənistan tərəfindən ərazilərinin təxminən 30 il işğalı nəticəsində Azərbaycan dünyanın mina ilə ən çox çirklənmiş ölkələrindən birinə çevrilib. İlkin hesablamalara görə, Azərbaycan ərazisinin 13 faizindən çoxu mina və partlamamış sursatların təsirinə məruz qalıb. Qarabağın və Şərqi Zəngəzurun azad edilmiş əraziləri mina və partlamamış sursatlarla artıq dərəcədə çirklənmiş vəziyyətdə qalır ki, bu da yenidənqurma, iqtisadi fəaliyyət, təhlükəsiz hərəkət və keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması üçün ciddi maneələr yaradır.




Konfransda çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov qeyd edib ki, Vətən müharibəsi başa çatandan sonra agentlik və humanitar minatəmizləmə fəaliyyətinə cəlb olunmuş digər qurumlar tərəfindən 298 min hektardan çox ərazi təmizlənib, 260 mindən çox mina və digər partlayıcı sursat zərərsizləşdirilib. O vurğulayıb ki, bu rəqəmlər yenidən istifadəyə verilən yolları, qurulan kəndləri, bərpa edilən elektrik xətlərini, istifadəyə qaytarılan kənd təsərrüfatı sahələrini və insanların doğma torpaqlarına qayıtması istiqamətində yaradılan imkanları ifadə edir:"2020-ci ilin noyabr ayından etibarən minatəmizləmə əməliyyatları işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və şəhərlərin bərpası prosesi ilə birbaşa əlaqələndirilib. Bu müddət ərzində yaşayış infrastrukturu üçün xüsusi olaraq 103 min hektardan çox ərazi təmizlənərək geri qayıdan sakinlər üçün yeni yaşayış məntəqələrinin, komplekslərinin, məktəblərin, xəstəxanaların, ictimai obyektlərin və zəruri xidmətlərin yaradılmasına imkan verib. Bundan əlavə, yolların, enerji infrastrukturunun, kənd təsərrüfatının və digər prioritet layihələrin həyata keçirilməsi üçün də əhəmiyyətli olan ərazilər təmizlənib".

## 3 min 500-dən çox vətəndaşımız minalardan zərər çəkib

"Vətən müharibəsinin bitdiyi 2020-ci ildən indiyədək mülki şəxslər, hərbçilər, minaaxtaranlar, jurnalistlər və yenidənqurma işlərində iştirak edən şəxslər də daxil olmaqla, 437 Azərbaycan vətəndaşı mina və partlayıcı sursat hadisələrinin qurbanı olub, nəticədə 73 nəfər həyatını itirib, 364 nəfər ağır yaralanıb. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan bəri 3 min 500-dən çox vətəndaşımız minalardan zərər çəkib. Onların arasında uşaqlar, qadınlar və digər mülki şəxslər də var ki, bu gizli təhlükə onların həyatına faciəvi təsir edib"- deyə, konfrans iştirakçılarına müraciətdə qeyd edilib.

Diqqətə çatdırılıb ki, Ermənistan tərəfindən təqdim edilən minalanmış sahələrin xəritələrinin əsasən qeyri-dəqiq və natamam olması bu çağırışın miqyasını daha da artırır. Minalar və mina tələləri yalnız keçmiş hərbi mövqelərdə deyil, həm də yollar boyunca, yaşayış sahələrinin yaxınlığında, qəbiristanlıqlarda, kənd təsərrüfatı torpaqlarında, meşələrdə, çay sahillərində və digər mülki ərazilərdə aşkar edilib. Buna baxmayaraq, Azərbaycan bu çağırışların öhdəsindən gəlməyə və vətəndaşlarının öz doğma yurdlarına təhlükəsiz, ləyaqətli və davamlı qayıdışını təmin etməyə qətiyyətlə sadiqdir. Humanitar minatəmizləmə Azərbaycanın azad edilmiş ərazilərində yenidənqurma və bərpa proqramının ayrılmaz və əhəmiyyətli hissəsidir. Şəhərlərin və kəndlərin yenidən qurulması, infrastrukturun bərpası, nəqliyyat və enerji şəbəkələrinin inkişafı, kənd təsərrüfatının dirçəldilməsi və yeni yaşayış məntəqələrinin yaradılması minatəmizləmə fəaliyyətləri ilə sıx və dəqiqliklə əlaqələndirilərək həyata keçirilir.




## 298 min hektardan çox ərazi minalardan təmizlənib

## Prezident: 40 min keçmiş məcburi köçkün azad edilmiş ərazilərdə evlərinə qayıdıb

Prezidentin müraciətində vurğulandığı kimi, Azərbaycanda minatəmizləmə fəaliyyəti daha geniş milli prioritetlərlə birbaşa bağlıdır. Bu fəaliyyət yenidənqurmanı, təhlükəsiz qayıdışı, kənd təsərrüfatının dirçəldilməsini, infrastruktur inkişafını, ətraf mühitin qorunmasını, sosial reinteqrasiyanı və iqtisadi bərpanı dəstəkləyir. Bu, həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in, xüsusilə də azad edilmiş ərazilərə Böyük Qayıdışla bağlı prioritetin həyata keçirilməsinə töhfə verir. İşğal zamanı dağıdılmış şəhərlər və kəndlər Böyük Qayıdış Proqramı çərçivəsində yenidən qurulur, müasir infrastruktur, yollar, tunellər, hava limanları, enerji obyektləri, məktəblər, xəstəxanalar, mədəniyyət abidələri və yaşayış məntəqələri bərpa olunur. Bu siyasətin praktik nəticələri artıq göz qabağındadır. Bu günədək təxminən 40 min keçmiş məcburi köçkün azad edilmiş ərazilərdə evlərinə qayıdıb. Ümumilikdə, hazırda Qarabağda və Şərqi Zəngəzurda yaşayan insanların sayı 90 mini keçib. "Azərbaycan minatəmizləmə, şəhərsalma, infrastrukturun inkişafı, ətraf mühitin bərpası, rəqəmsal həllər, sosial xidmətlər, dövlət idarəçiliyi və keçmiş məcburi köçkünlərin geri qayıtmasını vahid əlaqələndirilmiş çərçivədə birləşdirən münaqişədən sonrakı yenidənqurma, bərpa və idarəetmənin qabaqcıl modellərini işləyib hazırlayır və tətbiq edir. İşğal zamanı dağıdılmış və əhalisi boşalmış ərazilər qısa müddət ərzində yaşayış, iş, təhsil və imkanlar təqdim edən yerlərə çevrilir", - deyə dövlət başçısı bəyan edib.

## 57 ölkə mina və partlamamış sursat qalıqları ilə çirklənmiş vəziyyətdədir

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisinin adından çıxış edən Nasar Hayat dünyada təxminən 57 ölkənin mina və müharibənin partlamamış sursat qalıqları ilə çirklənmiş vəziyyətdə olduğuna diqqət çəkib. Onun sözlərinə görə, bu, bütöv icmaların təhlükəsizliyinə, sağlamlığına, rifahına, yaşayış vasitələrinə və sülh perspektivlərinə təhlükə yaradır. Cəmiyyətin ən həssas üzvləri olan qadınlar və uşaqlar isə tez-tez bundan böyük zərər görürlər.

Nasar Hayat qeyd edib ki, Azərbaycan dünyanın minalarla ən çox çirklənmiş ölkələrindən biridir. Faciələrdən və mina partlayışlarından sağ çıxan insanlar isə mina təhlükəsinin aradan qaldırılması istiqamətində fəaliyyətin nə üçün təxirəsalınmaz olduğunu bir daha xatırladırlar. "Çağırışın miqyasına baxmayaraq, Azərbaycan bu istiqamətdə diqqətəlayiq tərəqqi əldə edib. 2026-2030-cu illər üçün BMT və Azərbaycan Hökuməti arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi əsasında biz ANAMA-nı dəstəkləməyə sadiqik. Hələ çox iş görülməlidir, daha böyük tərəfdaşlıq və beynəlxalq həmrəylik lazımdır",- deyə Nasar Hayat bildirib.

Tədbir panel müzakirələrlə işini davam etdirib. Müzakirələrdə dövlət və hökumət nümayəndələri çıxış ediblər. Yekində konfransın bəyanatı qəbul olunub.

***Nardar BAYRAMLI***

# Sinqapurda "Kəmər və Yol" infrastruktur investisiyaları üzrə qlobal biznes sammiti...

Sinqapurda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq yolunda "Kəmər və Yol" infrastruktur investisiyaları üzrə qlobal biznes sammiti keçirilir.

AZƏRTAC xəbər verir ki, BMT-nin Qlobal Sazişi çərçivəsində keçirilən "Daha yaxşı dünya üçün birləşək" mövzusundakı sammitin məqsədi "Kəmər və Yol" infrastruktur layihələrində iştirak edən biznes tərəfdaşlarının potensialını gücləndirməkdən ibarətdir.

Sammitin açılışında BMT Baş katibinin köməkçisi, BMT Qlobal Sazişinin icraçı direktoru Sanda Ociambo, BMT Baş katibinin müavini, BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi Armida Salsiah Alişahbana (onlayn formatda), BMT-nin rezident əlaqələndiricisi Nikolas Mint və digər qonaqlar çıxış ediblər.

Çıxışlarda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında biznesin rolu, "Kəmər və Yol" təşəbbüsünün həyata keçirilməsində çoxtərəfli əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Bildirilib ki, qloballaşma şəraitində biznes sosial-iqtisadi inkişafın mühüm hərəkətverici qüvvələrindən biridir. Qeyd olunub ki, bu cür tədbirlər beynəlxalq əməkdaşlığın və dialoqun gücləndirilməsinə, dayanıqlı infrastrukturun inkişafı üçün yeni imkanların müəyyənləşdirilməsinə şərait yaradır.

Sammit çərçivəsində "Kəmər və Yol" üzrə yüksək keyfiyyətli əməkdaşlığın inkişaf etdirilməsi, dayanıqlı inkişaf üçün yaşıl infrastrukturun və regional əlaqələrin gücləndirilməsi mövzularında yüksək səviyyəli dialoqlar keçirilib. Həmçinin "Qlobal Sağlamlıq 2030-a doğru", "Davamlı inkişaf üçün yaşıl infrastrukturun və regional əlaqələrin inkişaf etdirilməsi", "İnklüziv artımın sürətləndirilməsi: rəqəmsal və yaşıl keçiddə qadınların və gənclərin səlahiyyətləndirilməsi" mövzularında panel müzakirələri təşkil olunub. Bundan əlavə, "Kəmər və Yol - BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri üçün" təşəbbüsü çərçivəsində enerji və rəqəmsal infrastruktur sahələri üzrə ekspertlər qrupu təsis edilib.




Qeyd edək ki, BMT-nin Qlobal Sazişi (UN Global Compact) şirkətləri öz fəaliyyət strategiyalarını insan hüquqları, əmək standartları, ətraf mühitin mühafizəsi və korrupsiyaya qarşı mübarizə prinsipləri, həmçinin "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmağa təşviq edən könüllü qlobal təşəbbüsdür. Biznesin sosial məsuliyyətini və dayanıqlı inkişaf prinsiplərinə sadiqliyinin təşviqini qarşıya məqsəd qoyan Qlobal Saziş dünyanın 180 ölkəsindən 25 mindən çox şirkəti və 3500-dən artıq qeyri-biznes tərəfdaşını birləşdirən ən böyük korporativ dayanıqlılıq şəbəkəsidir.

Xatırladaq ki, Azərbaycandan bir neçə şirkət və qurum, o cümlədən "Azərbaycan Dəmir Yolları" QSC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), "Azərkosmos", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC BMT-nin Qlobal Sazişinə qoşulub.

"Dayanıqlı İnkişaf Məqsədlərinin sürətləndirilməsi məqsədilə "Kəmər və Yol" təşəbbüsü üçün dayanıqlı infrastruktur" fəaliyyət planı 2019-cu ildə Pekində keçirilən 2-ci "Kəmər və Yol" Beynəlxalq Əməkdaşlıq Forumunda 40-a yaxın ölkənin dövlət başçısının imzaladığı birgə bəyannamənin çağırışına cavab olaraq, 2020-ci ildə BMT-nin Qlobal Sazişinin liderlər toplantısında təsis edilib. Fəaliyyət planının əsas məqsədi "Kəmər və Yol" infrastruktur layihələrində iştirak edən biznes tərəfdaşlarının BMT-nin Qlobal Sazişinin 10 prinsipinə uyğun məsuliyyətli və dayanıqlı fəaliyyət göstərmək imkanlarını gücləndirməkdir. Plan çərçivəsində layihələrin həyata keçirildiyi ölkələrdə çoxtərəfli məsləhətləşmələrin və siyasət dialoqu mexanizmlərinin təkmilləşdirilməsi, məsuliyyətli biznes təcrübələri vasitəsilə infrastruktur layihələrinin şəffaflığının, inklüzivliyinin və dayanıqlılığının artırılması nəzərdə tutulur. Bundan əlavə, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasını sürətləndirmək və bu istiqamətdə müsbət təsiri artırmaq məqsədilə əsas infrastruktur sahələrində qabaqcıl təcrübələrin tətbiqi təşviq edilir.

# Hidayət Orucov: yaddaşdan gələcəyə, ömürdən ucalığa

*"Bizi xalq kimi qoruyub saxlayan milli-mənəvi dəyərlərimizdir. İslami dəyərlərimizdir, dilimizdir, ədəbiyyatımızdır!" İlham Əliyev*



**Hidayət**

Bəzi insanlar ömürlərini yaşadıqları zamanın içində tamamlamırlar. Onların varlığı doğulduqları torpağın sərhədlərindən, gördükləri işlərin miqyasından, hətta öz ömürlərinin zamanından da uzaqlara yayılır və o qədər geniş miqyas alır ki, yaddaşlarda özünə ayrıca bir yurd salır...

**Hidayət...**
**Heç vaxt unudulmayacaq görkəmli sima!..**

Onun haqqında çox yazmışam. Məqalələr, esselər, tamaşaları haqqında resenziyalar, elmi-publisistik monoqrafiya, şeir... İndi isə rekviyem yazıram... Amma bu rekviyemi yazmaq mənim üçün çox çətindir. Vaxtaşırı görüşlərimizin istiqanlı ovqatı gəlir durur gözlərimin önündə və doyulmayan söhbətlərindən aldığım xoş təəssüratlar geri dönüş edir. Və nə qədər ağrılı olsa da, həmin xoş anların xatirələri məni o görkəmli şəxsiyyətlə bağlı düşüncələrimin arealına aparır. Məqamlar sanki real anlar kimi canlanır. Çünki elə indicə söhbət etdiyimiz, fikirlərini dinlədiyim, müəyyən məqamlarda sakit təbəssümlə yada saldığı xoş anlar, bəzən də hansısa ağrılı xatirələrin acı təəssüfü və s...

Ancaq indi yazarkən sanki geriyə deyil, gələcəyə baxıram...

Sanki bu işıqlı insan gələcəkdən çıraq tutur münasibətlərimizə. Elə bu andaca "İrəvanda yanan çıraq" tamaşasını xatırlayıram. O səhnə əsəri Hidayət müəllimin son "övladı" idi. Övlad ona görə deyirəm ki, Hidayət müəllim bir kəlmə sözünə də öz övladı qədər dəyər verən sənətkar idi. Heç vaxt unutmaram ki, İrəvan Teatrından söz düşərkən o sənət ocağını da övladları qədər, bəzən də daha çox istədiyini vurğulayırdı. Çünki İrəvan Teatrına o, milli mənafe kimi baxırdı.

Yazını işlədikcə mənə elə gəlirdi ki, bir azdan yenə görüşəcəyik, yenə hansısa məsələni müzakirə edəcəyik, yenə gələcək planlardan, Qərbi Azərbaycana dönüşdən, Zəngəzur həsrətinin sona varmasından, Maralzəmidəki uşaqlıq ləpirlərinin retroizmindən danışacağıq... Nə təəssüf ki, indi həmin gələcək sadəcə xatirəyə çevrilmiş bir mistik haldır.

Bu duyğularla fikirlər vərəq üzərinə qonduqca adam anlayır ki, amansız yoxluq bəzən bir insanı bir an içində həyatımızdan çıxara bilmir. Əksinə, onu xatirələrimizin içində daha çox görünən edir. Hidayət müəllim indi mənim yaddaşımda daha çox görünəndir, canlıdır. Bir söhbətdə... Bir baxışda... Bir cümlədə... Bir xatirədə... O insana ehtiramımda... Və hər şeydən əvvəl, ömrü boyu daşıdığı o qəribə, ağır, lakin işıqlı narahatlığında.

Çünki Hidayət müəllim rahat yaşayan adamlardan deyildi. Vətəninə qarşı haqsızlıq, torpağından uzaqda qalmaq, milli yaddaşın unudulması, insanların bir-birinə qarşı amansızlığı, hqqın tapdanması, ədalətsizlik, insanın insan qarşısında ləyaqətini itirməsi onu narahat edirdi... Bu narahatlıq onun xarakterinin zəifliyi deyildi. Əksinə, vicdanının oyaqlığı idi.

Bəzi insanlar dünyada baş verənlərə baxıb özlərini kənara çəkirlər. Bəzi insanlar isə başqasının ağrısını da öz ağrısı kimi yaşamağa məcbur olurlar. Hidayət müəllim ikincilərdən idi. Ona görə də ömrü boyu içində bir yük daşıdı. Bu yükün adı yalnız Vətən deyildi. Yalnız torpaq deyildi. Yalnız millət deyildi. Bunların hamısının fövqündə insan meyarı dayanırdı. Çünki Hidayət müəllim üçün Vətəni sevmək insanı sevməkdən ayrı deyildi. Milli yaddaşa hörmət insanın yaddaşına hörmətdən ayrı deyildi. Dövlətə xidmət insan qarşısında məsuliyyətdən ayrı deyildi. Onun şəxsiyyətində bunlar bir-birini tamamlayırdı.

Hidayət Orucovun ömür yolu Zəngəzurun Meğrı rayonunun Maralzəmi kəndindən başlayırdı. Bu ad onun üçün sadəcə coğrafi ünvan deyildi. Maralzəmi onun uşaqlığı idi... Anası idi... Atası idi... İlk dilinə gələn söz idi... İlk duyğu idi... İlk torpaq hissi idi... Təbiətin yaddaşda qalan nəfəsi idi... İnsan münasibətlərinin ilk məktəbi idi... Və həyat onu nə qədər uzaqlara aparsa da, bu başlanğıc heç vaxt onun içindən çıxmadı.

İnsan bəzən doğulduğu yeri geridə qoyur. Hidayət isə doğulduğu yeri özü ilə apardı. Maralzəmi onunla birlikdə İrəvana getdi, Bakıya getdi, diplomatik fəaliyyətinin müxtəlif ünvanlarına getdi, dövlət işinə getdi, yazı masasına getdi, səhnəyə getdi...

Torpaq onun yaddaşında coğrafiyadan mənəvi varlığa çevrildi. Bəlkə də buna görə Hidayətin yurd həsrətində yalnız itirilmiş bir məkanın nisgili yox idi. Orada qorumaq məsuliyyəti vardı. Yaddaşın məsuliyyəti... İnsan itirdiyi yurdu xatırlamaqla bəzən onu özündən uzaqlaşdırmır. Əksinə, yaddaşında yaşatmaqla həmin yurdu öz mənəvi varlığının ayrılmaz hissəsinə çevirir. Hidayət müəllim də belə yaşadı. Maralzəmi onun yaddaşında heç vaxt keçmiş olmadı.

...Sonra İrəvan gəldi...

Onun həyatında İrəvanın xüsusi yeri vardı. Gənc yaşında İrəvan Dövlət Azərbaycan Dram Teatrına rəhbərlik etməsi onun taleyini yalnız sənətlə deyil, milli yaddaşla da bağladı. 1968-1984-cü illərdə teatrın rəhbəri olduğu dövr onun həyatında sadəcə peşə mərhələsi kimi qiymətləndirilə bilməz. Çünki o illərdə teatr yalnız tamaşa göstərilən yer deyildi. Azərbaycan dilinin səsləndiyi yer idi... Azərbaycan dramaturgiyasının yaşadığı yer idi... Milli səhnə mədəniyyətinin qorunduğu yer idi... Azərbaycanlıların öz sözünü, öz sənətini, öz yaddaşını yaşatdığı məkan idi...

Hidayət müəllim həmin sənət ocağına yalnız rəhbərlik etmirdi. O, həmin səhnənin taleyini daşıyırdı.

Sonralar mən onunla teatr haqqında danışarkən hiss edirdim ki, İrəvan teatrı Hidayət müəllim üçün keçmişdə qalmış bir iş yeri deyil. Orada keçən illər onun həyatının içində yaşayan bir dövrdür. İnsan hansısa yerdə özündən bir parça qoyub gedirsə, həmin yer artıq onun üçün adi məkan olmur. İrəvan teatrı da Hidayətin ömründə belə idi. Orada Azərbaycan sözü səslənmişdi. Orada sənət və sənət meyarında milli adətlər, ənənələr, toponimlər yaşamışdı. Orada insanlar bir araya gəlmişdi. Orada bir milli yaddaş qorunmuşdu. Və Hidayət müəllim həmin yaddaşı ömrünün sonuna qədər özü ilə daşıdı...

Elə bu andaca 2000-ci ildə İrəvan Teatrına rəhbər vəzifəyə təyin olunduğum günü xatırlayıram. İlk işim məhz Hidayət müəllimdən həmin vəzifəni daşımaq üçün xeyir-dua almaq oldu.

Sual doğa bilər ki, həmin zaman Hidayət Orucov Milli məsələlər üzrə Dövlət müşaviri vəzifəsini daşıyırdı. İrəvan Teatrının rəhbər vəzifəsinə təyinat üçün o mühüm vəzifə sahibindən xeyir-dua almağın nə anlamı vardı? Ancaq o vaxt mənim içimdən belə bir hiss keçdi ki, İrəvan teatrının yad mühitdə təəssübünü qorumuş, məhz yad sənət mühitində bu sənət ocağının intibahını təmin etmiş o nəhəng insanın bu teatrın üzərində daha çox haqqı vardır. Ona görə də məhz həmin haqqın dəyərini verə bilmək üçün mütləq xeyir-duanı da məhz ondan almaq lazım idi.

Hidayət müəllimin xeyir-duasından sonra İrəvan Teatrının dirçəliş dövrü yenidən başlandı və teatr həm sənət yaratdı, həm milli ruhun dirçəlişinə xidmət etdi, həm də İrəvana qayıdış missiyasını öz repertuarının əsas strategiyasına çevirdi. Hansı ölkəyə getdisə, orada Qərbi Azərbaycanlıların axtarışında oldu. Zaman-zaman İrəvandan və ümumən Qərbi Azərbaycanın müxtəlif bölgələrindən didərgin salınmış əziz soydaşlarımızla doğma görüşlərə can atdı...

Teatrın bu missiyanı gerçəkləşdirdiyi və hər yeni uğurla öz mənəvi-sənət miqyasını genişləndirdiyi illər keçdikcə Hidayət müəllimin həmin xeyir-duasının mənasını mən də daha dərindən anlamağa başladım. Çünki İrəvan Teatrına rəhbərlik etmək mənim üçün yalnız yeni bir vəzifəyə başlamaq deyildi. Bu, bir vaxtlar Hidayət müəllimin qoruduğu səhnənin məsuliyyətini öz üzərinə götürmək idi. Sanki o, illər əvvəl daşıdığı bir əmanəti mənə verirdi. Mən də həmin əmanətin ağırlığını hiss edirdim. Bəlkə elə buna görə sonrakı illərdə onun dramaturgiyasına, xüsusilə İrəvan və Qərbi Azərbaycan mövzusunda yazdığı əsərlərə daha başqa bir duyğu ilə yanaşırdım. Çünki artıq onun yazdıqları ilə yalnız oxucu kimi deyil, həmin səhnənin içindən keçmiş bir insan kimi qarşılaşırdım..

Sonralar o yüksək ruhlu vətənpərvər yazıçının "İrəvanda xal qalmadı" əsərinin tamaşasında Tarix obrazını canlandırdım. Bu rol mənim üçün adi aktyor işi olmadı. Çünki zaman keçdikcə anlayırdım ki, Hidayət müəllim bu obrazda yalnız dramaturji bir fiqur yaratmayıb. Tarixin dərin qatlarından danışan, İrəvanın yaddaşında gizlənmiş həqiqətləri üzə çıxaran, Qərbi Azərbaycan torpaqlarının qədim türk etnosuna bağlılığını öz mövqeyi ilə ifadə edən bu obrazın mənəvi prototipi elə müəllifin özüdür.

Mən isə həmin obrazı canlandırarkən qəribə bir hiss keçirirdim. Sanki səhnədə Tarixi yox, Hidayət müəllimin öz daxilində uzun illər daşıdığı etirazı, ağrını, yaddaşı və həqiqətə çağırışını səsləndirirdim. Sanki onun içindən keçən sözlər mənim səsimlə səhnəyə çıxırdı. Mən o obrazda onun tarixə münasibətini, İrəvan həqiqətlərinə bağlılığını, zamanın dərinliyində gizlənmiş yaddaşın üzə çıxarılmasına olan ehtiyacını hiss edirdim. Mən dəqiq bilirdim ki, mən obrazı oynamıram, Hidayətin içindən gələn bir etirazı yaşayıram.

Bu, mənim üçün qəribə, mistik bir bağ idi. Müəlliflə aktyor arasında adi yaradıcılıq münasibətindən daha artıq bir yaxınlıq hiss edirdim. Sanki onun yaddaşında qalan İrəvan mənim səhnə yaddaşıma köçürdü. Sanki onun illərlə içində daşıdığı suallar mənim səsimdə cavab axtarırdı.



*"İrəvanda xal qalmadı" tamaşasından səhnə*

Bəlkə də buna görə Hidayət müəllimin dramaturgiyasında Qərbi Azərbaycan, İrəvan, yurd itkisi və milli yaddaş məsələlərinin yenidən üzə çıxması mənə heç vaxt təsadüfi görünmürdü. Çünki insanın içində yaşayan torpaq bir gün mütləq sözə çevrilir. Bəzən şeirə... Bəzən nəsrə... Bəzən dramaturgiyaya... Bəzən də sadəcə bir söhbətə...

Hidayət müəllimin yaradıcılığında da torpağın səsi müxtəlif formalarda eşidilirdi. "Burdan min atlı keçdi" əsəri bu baxımdan xüsusilə düşündürücüdür. Əsərdə İrəvanın, Azərbaycan teatrının, milli-mədəni həyatın və xalq taleyinin müxtəlif zaman qatlarının bir araya gətirilməsi təsadüfi deyil. Burada keçmiş sadəcə xatırlanmır. Keçmiş bu günün qarşısına çıxarılır. Sanki müəllif zamanın o üzündən bu üzünə səslənir: Unutmayın!..

Məncə, Hidayət müəllimin yaradıcılığında ən mühüm sözlərdən biri də məhz bu idi - Unutmayın!..

Yurdu unutmayın... İnsanı unutmayın... Tarixi unutmayın... Şəhidimizi unutmayın... Ana dilini unutmayın... Yolunuza çıraq tutan Liderlərinizi unutmayın... Özünüzü unutmayın...

Bu məqamda "Burdan min atlı keçdi" əsərinin səhnə taleyini xatırlayıram. Çox uğurlu bir səhnə ömrü yaşadı bu əsər. Əsərdə Ulu Öndər Heydər Əliyevin bədii obrazını canlandırmaq mənim taleyimə nəsib olmuşdu. Mən bu tale işinə də məhz Hidayət müəllimin əmanətinin məsuliyyətini daşımaq qədər ağır və şərəfli bir vəzifə kimi baxırdım. O parlaq Şəxsiyyətin, xalqımızın Ümummilli Liderinin ruh dünyası müəllif tərəfindən xüsusi sevgi və dərin ehtiramla yaradılmışdı. Onun insani cəhətləri, milli təəssübkeşliyi, xalqın taleyi qarşısında daşıdığı məsuliyyət, Qarabağ məsələsinin gələcək təhlükələrini öncədən görən siyasi fəhmi və respublikaya rəhbərlik edənləri bu istiqamətdə diqqətli olmağa çağıran mövqeyi əsərin səhnə strukturunda öz bədii ifadəsini tapırdı. Təkbaşına, qarşısında çoxsaylı və mühüm "rıçaqları" olan qüvvələrlə gərgin mübarizə aparan, son nəfəsinə qədər ömrünü doğma xalqına həsr edən Heydər Əliyevin mücadilələrinin səhnə ekvivalenti Hidayətin mükəmməl qələmi ilə yaradılmışdı.

Mən isə bu obrazın ifaçısı kimi səhnədə yaşananların salonda necə əks-səda doğurduğunun şahidi olurdum. Hər emosional vəziyyətin, hər qarşıdurmanın, hər sözün alqışlarla qarşılanması mənim üçün yalnız tamaşaçı reaksiyası deyildi; bu, xalqımızın Ulu Öndərin parlaq şəxsiyyətinə və nurlu əməllərinə bəslədiyi dərin sevginin səhnədəki təzahürü idi.

Hidayət müəllimi yalnız milli məsələlərə münasibəti və dövlətçilik mövqeyi ilə xatırlamaq da onun şəxsiyyətini tam ifadə etməz. Çünki onun bu təəssübkeşlik ruhunun arxasında çox güclü bir insanlıq duyğusu vardı. Mən bunu onun insanlara münasibətində dəfələrlə görmüşəm. Mövqeyinin, tutduğu vəzifələrin, mənəvi və intellektual ucalığının yaratdığı məsafəni qarşısındakı insana hiss etdirməzdi. Onun insanlıq meyarının mühüm bir göstəricisi isə sədaqət idi - Vətəninə, torpağına, milli mənafeyə, dövlətçiliyimizə, Ümummilli Lider Heydər Əliyevə və Prezident İlham Əliyevə, onların işıqlı ideyalarına sədaqət. Bu sədaqət onun yaradıcılığında yalnız fikir və mövqe kimi deyil, ömrünün mənəvi istiqamətini müəyyənləşdirən bir dəyər kimi yaşayırdı.



*"Burdan min atlı keçdi" tamaşasından səhnələr*

Bunu "Burdan min atlı keçdi" tamaşasının finalında da xüsusi bir mənəvi bütövlükdə hiss etmək olurdu. Heydər Əliyevin Qarabağa qayıdışımıza inamını və bu qayıdışın gələcəyinə yönəlmiş vəsiyyətini ifadə edən monoloqundan sonra müəllif səhnəyə artıq başqa bir zamanın səsini gətirirdi. Prezident İlham Əliyevin "Ata vəsiyyəti"nin yerinə yetirildiyini ifadə edən səsi həmin səhnədə Heydər Əliyevin sözlərinə əks-səda verərək bir zamanlar ayrılmış iki məqamı - vəsiyyəti və onun gerçəkləşməsini - vahid mənəvi bütövlükdə birləşdirirdi. Bu səs salonda coşqun alqışlarla qarşılanırdı. Mən isə səhnədə dayanaraq həmin anın yalnız tamaşanın finalı olmadığını, bir xalqın yaddaşında yaşayan arzunun, inamın və sədaqətin səhnə üzərində tamamlanan mənəvi dövrəsi olduğunu duyurdum.

Hidayət müəllimin xarakterik cəhətlərindən biri də bu idi ki, o, hər kəslə eyni tərzdə danışmırdı, çünki hər insanın öz dünyası olduğunu bilirdi. Amma qarşısındakı insana ehtiram göstərməkdən heç vaxt vaz keçmirdi. Onun üçün insanın mövqeyi, tutduğu vəzifə və cəmiyyətdəki yeri deyil, hər şeydən əvvəl insan olması əsas idi. Bəlkə də bu səbəbdən heç kəsi özündən aşağı görmədən, eyni zamanda öz şəxsiyyətinin meyarlarından da aşağı enmədən yaşayırdı.

Mənim ona bağlanmağımın səbəblərindən biri də məhz bu idi. Onun yanında insan özünü başqa cür hiss edirdi. Sanki həmin mənəvi mühit adamı özü ilə daha ciddi danışmağa, öz ölçüsünü daha yüksəkdə tutmağa, daha yaxşı olmağa səsləyirdi.

Bəlkə də Hidayət müəllimin yaddaşlarda bu qədər işıqlı qalmasının səbəblərindən biri də elə bu idi: o, insanın qarşısında öz ucalığını nümayiş etdirmədən, qarşısındakı insanın ləyaqətini qoruyaraq böyük qalmağı bacarırdı.

Hidayət müəllimin həyatında "Uca ol!" sözünün xüsusi yeri vardı. Bu iki söz mənim yaddaşımda indi daha ağır çəkilidir. Zaman keçdikcə daha aydın dərk görünür ki, o, başqalarına tövsiyə etdiyi bir həyat ölçüsünü özü də yaşadı.

Ucalıq onun üçün vəzifə deyildi... Ad deyildi... Titul deyildi... Ucalıq o insanın öz daxilində qurduğu mənəvi nizam idi.

Sözünün arxasında dayanmaq... İnsanı yarı yolda qoymamaq... Vətən qarşısında məsuliyyəti dərk etmək... Dövlətə xidmət edərkən şəxsi rahatlığı önə çəkməmək... Yaxşılıqdan qaçmamaq... Haqqı müdafiə etməkdən çəkinməmək... Və ən çətini - bunların heç birini özünü başqalarından üstün tutmadan etmək...

Hidayət müəllimin ucalığı mənə belə görünürdü.

Onun dövlət xadimi kimi fəaliyyətinə də mən bu baxımdan nəzər yetirirəm. Hidayət müəllim üçün dövlət işi sadəcə vəzifə deyildi. O, vəzifəyə insana verilən etimad kimi baxırdı. Etimad isə məsuliyyət yaradır.

Hidayət müəllim müxtəlif illərdə müxtəlif dövlət vəzifələrində çalışdı, diplomatik fəaliyyət göstərdi, Azərbaycanın dövlətçilik maraqlarının təmsil olunmasında iştirak etdi. Amma hansı müstəviyə yüksəlməsindən asılı olmayaraq, özünü yalnız vəzifənin daşıyıcısı kimi deyil, Azərbaycanın məsuliyyətini daşıyan insan kimi hiss edirdi. Bunu onun həyatının müxtəlif mərhələlərinə baxanda görmək mümkündür. İrəvanda da, Azərbaycanda da, Qırğızıstanda diplomatik fəaliyyətdə də onun üçün dəyişən ünvan idi, məram yox...

Hidayət müəllimin Vətən sevgisi də gurultulu sözlərə ehtiyac duymurdu. O, Vətəni yalnız yüksək səslə danışılan bir anlayış kimi deyil, gündəlik məsuliyyət kimi yaşayırdı.

Vətən torpaq idi... Vətən dil idi... Vətən insan idi... Vətən dövlət idi... Vətən tarix idi... Vətən yaddaş idi... Vətən həm də gələcək idi.

Ona görə də onun milli mövqeyində keçmişə bağlılıqla gələcəyə inam bir-birinə zidd görünmürdü. Əksinə, biri o birini tamamlayırdı. Keçmişi xatırlayırdı ki, gələcəyi qura bilək. Yurdu düşünürdü ki, Vətənin mənasını itirməyək... Tarixi yaşadırdı ki, yeni nəsil özünü tanısın.



*"İrəvanda yanan çıraq" tamaşasından sonra*

Bəlkə də onun poeziyasının, nəsrinin və dramaturgiyasının müxtəlif istiqamətlərini birləşdirən əsas damar da burada idi. O, insanın içindəki yaddaşı oyatmaq istəyirdi. Amma bunu yalnız milli duyğu ilə məhdudlaşdırmırdı. Onun yaradıcılığında ana sevgisi də vardı... Ata həsrəti də... Uşaqlıq da... Dostluq da... İnsan dərdi də... Kimsəsizin taleyi də... Məsumluq da... Vicdan da... Təbiət də... Ümid də...

Çünki milli ruh onun yaradıcılığında insanlıqdan ayrılmırdı.

Bu, mənim üçün çox vacibdir. Çünki yalnız millətini sevən deyil, insanı sevə bilən milli ruh böyük və davamlı olur. Hidayətin milliyyətçiliyi insanı daraldan yox, məsuliyyətini artıran məzmun daşıyırdı.

İndi bütün bunları xatırlayanda bir məsələ xüsusilə ağır gəlir. O uca İnsan haqqında yazanda onun qarşısında oturub danışa bilmirsən, o da cavab vermir. Sənin fikrini tamamlamır... Bəzən hansısa sözünə etiraz etmir... Səni düzəltmir... Gülümsəmir... Söhbətin sonunda özünəməxsus bir cümlə ilə mövzunu bağlamır...

Sadəcə susur!..

Və sən anlayanda ki, bu sükut əbədidir, ağrıyırsan!..

Məncə, itkinin ən ağır tərəfi də budur. İnsan yalnız adamı itirmir. Onunla mümkün olacaq gələcək söhbətləri də itirir. Bir daha verilə bilməyəcək sualları... Bir daha eşidilməyəcək cavabları... Bir daha yaşanmayacaq görüşləri...

Ona görə gedişin arxasınca ən çox "kaş" sözü gəlir.

Kaş bir dəfə də danışaydıq... Kaş bir dəfə də görüşəydik... Kaş bir xatirəni də ondan - öz dilindən eşidəydik... Kaş!..

Amma həyatın "kaş"ları geri qaytaran tərəfi yoxdur. Onlar yalnız yaddaşı dərinləşdirir.

Hidayət müəllim haqqında mən də indi daha çox yaddaşla danışıram. Bəlkə də əvvəl yazdığım yazılarda onun müxtəlif fəaliyyət istiqamətlərini ayrı-ayrılıqda izah etmişəm. Teatr haqqında yazmışam. Dövlət fəaliyyətindən danışmışam. Şəxsiyyəti barədə fikirlərimi bölüşmüşəm. ndi isə bunların hamısını bir yerə gətirəndə başqa bir mənzərə yaranır. Mənim qarşımda ayrı-ayrı titulları olan bir şəxsiyyət yox, bir ömrün bütövlüyü dayanır.

Şair... Dramaturq... Teatr xadimi... İctimai-siyasi və dövlət xadimi... Diplomat... Amma bütün bunlardan əvvəl və sonra - İnsan!..

Məncə, onun haqqında ən böyük söz də budur.

Hidayət müəllim özündən sonra yalnız əsərlər qoymadı. Bir münasibət qoydu - insana münasibət... Vətənə münasibət... Dövlətə münasibət... Sözə münasibət... Yaddaşa münasibət...

Ona görə onun irsi yalnız kitabxanalarda qorunacaq irs deyil. Bu irsin bir hissəsi insan davranışındadır... Bir insanın başqasına ehtiramında... Bir ziyalının öz sözünə məsuliyyətində... Bir vətəndaşın dövlət qarşısındakı mövqeyində... Bir sənətkarın xalqının yaddaşına münasibətində...

Bu gün 5 sentyabrdır... Əvvəllər bu tarix Hidayət müəllimin doğum günü idi. İndi isə həmin tarixdə həm doğumun sevincini, həm də... ağrını birlikdə yaşayacağıq. Bir insanın ad gününün onun əbədiyyətə qovuşmasından sonra gəlməsi qəribə hissdir... Təqvim dəyişmir... Tarix yenə 5 sentyabrdır... Amma insan əbədiyyət evindədir. Bu, yoxluğun ən səssiz tərəfidir...

Təqvim davam edir... Dünya davam edir... Səhərlər açılır... İnsanlar işə gedir... Teatrda tamaşalar oynanılır... Kitablar çap olunur... Söhbətlər edilir... Amma bir insanın səsi artıq bütün bu səslərin içində yalnız yaddaşdan eşidilir...

Bəlkə də ona görə bu yazını adi vida sözləri ilə bitirmək istəmirəm. Çünki Hidayət müəllimin ömrü adi bir vida ilə tamamlanacaq ömür deyildi. O, özündən böyük bir yaddaşın içindən keçdi. Maralzəmidən başladı... İrəvandan keçdi... Azərbaycanın müxtəlif ünvanlarında davam etdi... Dövlət xidmətinə çevrildi... Diplomatik missiyalara uzandı... Sənətə qayıtdı... Teatra qayıtdı... Sözə qayıtdı... Və nəhayət, bütün bunların hamısını özündə birləşdirən bir insan ömrü kimi yaddaşımıza köçdü...

İndi o nəhəng insan əbədiyyətdədir, amma onun haqqında düşünəndə qəribə bir hiss keçirirəm. Sanki Maralzəmidə bir yol hələ də qalır. O yol İrəvana gedir... İrəvandan bir teatr səhnəsinə çıxır... Səhnədən bir kitabın səhifəsinə keçir... Kitabdan bir insanın yaddaşına hopur. Və oradan daha uzağa gedir. Bəlkə də insan ömrünün həqiqi davamı elə budur: Özündən sonra getdiyi yolları yaşatmaq!..

Hidayət müəllim də belə bir yol qoyub getdi. Bizə torpağı xatırladan yol... Vətəni xatırladan yol... Milləti xatırladan yol... Dövləti xatırladan yol... Sənəti xatırladan yol... İnsanı xatırladan yol... Və həmin yolun bir yerində onun bizə dediyi iki söz hələ də dayanır: "Uca ol!" İndi o söz mənim üçün sadəcə tövsiyə deyil. Bir əmanətdir. Hidayət müəllimin öz ömründən bizə qalan əmanət. Bu əmanətin qarşısında nə deyəsən? Bəlkə yalnız bunu: Sizi heç vaxt unutmayacağıq, Hidayət müəllim!.. Siz Maralzəmini unutmadığınız kimi, biz də sizi unutmayacağıq. Sizin daşıdığınız yurd yaddaşını, Vətən sevgisini, insanlıq ölçüsünü, dövlətə sədaqəti və sözə ehtiramı yaşatmağa çalışacağıq. Çünki bəzi insanlar dünyadan köçür - bəzi insanlar isə öz ömrünü yaddaşa əmanət edir. Hidayət Orucov da ömrünü yaddaşa əmanət edənlərdəndir. Və belə insanların ömrü... əbədiyyətə köçməklə bitmir!..

Ruhunuz şad olsun, işıqlı insan, əziz Hidayət müəllim!



***İFTİXAR,***
***Əməkdar mədəniyyət işçisi,***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru***

# Rusiya Ermənistanı cəzalandıracaqmı?

Ermənistan hakimiyyətinin Qərbyönümlü siyasəti Rusiyada xoş qarşılanmır. Xüsusilə, Ermənistanın Avropa İttifaqına qoşulmaq istəyi, KTMT-də fəaliyyətini dondurması, Gümrüdə yerləşən 102-ci baza ilə bağlı ehtimallar Moskvanın etirazlarına səbəb olur. Bu fakt Şanxay Əməkdaşlıq Təşkilatının Bişkekdə keçirilən sammiti çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşündə də özünü açıq şəkildə büruzə verib.

## Putin: Ermənistan Aİ və AİI arasında seçim etməlidir

Görüşdə V.Putin deyib ki, Ermənistanın Avropa İttifaqına (Aİ) daxil olmaq istəyi onun xalqının qanuni hüququdur, lakin belə kurs ölkənin Avrasiya İqtisadi İttifaqında (AİI) gələcək iştirakı üçün çətinliklər yaradır: "Ermənistanın Aİ-yə daxil olmağa can atması ölkənin və xalqın təbii, qanuni hüququdur. Ermənistan suveren dövlətdir. Öz inkişaf istiqamətini müəyyənləşdirmək Ermənistan xalqının hüququdur. Lakin bu, AİI-də qalmağa çətinliklər yaradır", - Putin deyib.

V.Putin Paşinyanın Ermənistanın AİI-dən çıxmaq barədə bəyanat verməmdiyi ilə bağlı mövqeyi ilə də razılaşmayıb. Rusiya liderinin sözlərinə görə, Ermənistanın başqa iqtisadi təşkilata daxil olmaq prosedurunun başlanması haqqında qanun qəbul etməsi faktiki olaraq AİI-dən çıxmaq barədə bəyanat deməkdir, çünki eyni vaxtda iki təşkilatda üzvlük mümkün deyil. "Başqa bir iqtisadi təşkilata daxil olmaq prosedurunun başlanması haqqında qanunun qəbul edilməsi faktiki olaraq bizim təşkilatdan çıxmaq barədə bəyanat deməkdir. Çünki həm orada, həm də burada olmaq mümkün deyil. Problem də bundadır", - deyə, o vurğulayıb.

## Ermənistan referendum keçirməkdən imtina edib?

Buna cavab olaraq Paşinyan bildirib ki, qanunun qəbul edilməsi, əksinə, Ermənistanın Aİ-yə daxil olması ilə bağlı referendum keçirmək ideyasından imtinası deməkdir: "Qanunu qəbul etməklə biz referendum ideyasından imtina etdik, çünki bu məsələ xalq qarşısında ifadə oluna biləcək səviyyəyə qədər yetişməyib. Belə ki, Ermənistanın real alternativi yoxdur". O deyib ki, ölkəsinin Avropa İttifaqı ilə yaxınlaşması prosesi heç bir halda Rusiya Federasiyasına və ya AİI-yə qarşı yönəlməyib.

Lakin Paşinyanla razılaşmayan V.Putin bəyan edib ki, Ermənistanın həm Avropa İttifaqında, həm də Avrasiya İqtisadi İttifaqında olması uyğun deyil. Putin bunu "problem" adlandıraraq məsələni sakitcə müzakirə etməyi təklif edib. Rusiya lideri Ermənistan baş nazirini Moskvaya dəvət edib. Liderlər arasında dialoq bununla bitməyib. Paşinyan isə cavabında bəyan edib ki, çox konkret seçim etmək lazım olan vaxt gələcək: "AİI ilə Avropaya inteqrasiya arasında seçim etməyin vaxtı hələ gəlməyib. Alternativ reallıq yaradılanda referendum, yaxud onsuz, seçim edəcəyik". Vladimir Putin referendumun keçirilməsini dəstəkləyərək Paşinyana bunu etməyi məsləhət görüb.

Bundan əlavə, Paşinyan İrəvanın Rusiya ilə münasibətlərin daha da dərinləşdirilməsində və inkişafında maraqlı olduğunu bildirib. Lakin onun fikrincə, regiondakı yeni reallıqlar nəzərə alınmaqla İrəvan və Moskva münasibətlərinə "yeni baxış" lazımdır. Paşinyanın sözlərinə görə, son illər regionda və Ermənistan ətrafında vəziyyət dəyişib, buna görə də iki ölkə arasındakı münasibətlərə yeni reallıqlar nəzərə alınmaqla baxılmalıdır. "Münaqişə şəraitində Rusiya və Ermənistan arasındakı münasibətlər başqa məna daşıyırdı, indi isə, regionda sülh bərqərar olanda, bizə elə gəlir ki, vəziyyətə artıq yeni baxışla baxmaq lazımdır", - deyən baş nazir belə bir yanaşmanın Ermənistan və Rusiya arasındakı münasibətlərin gələcək inkişafına kömək edəcəyini qeyd edib.



Gümrüdəki 102-ci hərbi bazanın taleyinə gəlincə, Rusiya Prezidenti Bişkekdə keçirdiyi mətbuat konfransında Ermənistanın bu hərbi bazanın mövcudluğunda maraqlı olmadığı təqdirdə, onu Gümrüdən çıxarmağa hazır olduğunu açıqlayıb. O, həmçinin qeyd edib ki, əgər Ermənistan xalqı istəsə, Rusiya hərbi mövcudluğunu qorumağa hazırdır. "Əgər Ermənistan hesab edirsə ki, Rusiya hərbi bazasına ehtiyac duymur, biz ən azı sabah oradan çıxacağıq. Bəs Ermənistan buna hazırdırmı? Biz heç kimə heç nəyi zorla qəbul etdirməyəcəyik. Əgər Ermənistan xalqı hansısa Rusiya hərbi qanadının onların yanında olmasını istəyirsə, biz qalacağıq, işləyəcəyik və əməkdaşlıq edəcəyik", - deyə Putin

## Rusiya 102-ci hərbi bazanı Ermənistandan çıxarmağa hazırdır, amma...

vurğulayıb. O, Ermənistanın baş naziri Nikol Paşinyanı Ermənistan-Rusiya münasibətləri ilə bağlı məsələləri sakit atmosferdə və mütəxəssislərin iştirakı ilə müzakirə etmək üçün Moskvaya dəvət etdiyini xatırladıb. "Mən onu Moskvaya dəvət etdim ki, biz onunla və mütəxəssislərimizlə tələsmədən oturub hər bir məqamı nəzərdən keçirə bilək. Orada konkret məsələlər də var, məsələn, dəmir yolu", - deyən Putin əlavə edib ki, tərəflər dialoqu sakit rejimdə aparmaq barədə razılığa gəliblər.

Xatırladaq ki, Ermənistanda yerləşən 102-ci Rusiya hərbi bazası 1995 -ci ildə yaradılıb. Baza Rusiya Federasiyasının Silahlı Qüvvələrinin Quru Qoşunlarının tərkibindəki Cənub Hərbi Dairəsinə tabedir. Təxminən 5 min nəfərə yaxın şəxsi heyətə malikdir. 102-ci hərbi baza Rusiyanın Ermənistan ilə münasibətlərində mühüm əhəmiyyət daşıyır və Moskvanın xaricdəki azsaylı hərbi bazalarından biridir. Bu günə qədər baza faktiki olaraq, Ermənistanın Moskvanın diktəsilə idarə olunmasına şərait yaradan vacib element rolunu ifa edir. Hərbi baza həm MAXE, həm də gənc çağırışçılarla komplektləşdirilir. Baza ümumilikdə 13 döyüş və 17 təchizattəminat bölməsindən ibarətdir. Bazada digər silah və hərbi texnika ilə yanaşı, C-300 zenit-raket kompleksi, Miq-29 qırıcıları, Mi-24P və Mi-8MT helikopterləri də var.

Hazırda bazanın Ermənistandan çıxarılması üçün hüquqi əsaslar varmı? Çünki iki ölkə arasında imzalanmış müqaviləyə görə, hərbi baza Ermənistanda 49 il fəaliyyət göstərməlidir. Belə ki, bununla bağlı iki dövlət 1995-ci ildə 25 il müddətinə sənəd imzalayıb. 2010-cu ildə isə hərbi bazanın dislokasiya müddəti uzadılıb. Yəni, imzalanmış sənədə əsasən 102-ci hərbi baza 2044-cü ilə qədər Ermənistan ərazisində qalmalıdır.

***Nardar BAYRAMLI***



# BMT emissiyaları təcili azaltmağa çağırıb

Bəşər hələ də iqlim dəyişikliyinin fəsadlarından qaça bilər, lakin bunun üçün istixana qazı emissiyalarını dərhal azaltmaq və uyğunlaşma tədbirlərini gücləndirmək lazımdır. Bu barədə Birləşmiş Millətlər Təşkilatının (BMT) Ətraf Mühit Proqramının (UNEP) yeni hesabatında bildirilir.

BMT-nin Xəbərlər Xidməti xəbər verir ki, hesabatda rekord istilik dalğalarının, dağıdıcı daşqınların və digər ekstremal hava hadisələrinin planetin sürətlə istiləşdiyini göstərdiyi qeyd olunur. BMT-nin Baş katibi Antonio Quterreşin sözlərinə görə, yaxın illərdə temperaturun Paris Sazişi ilə müəyyən edilmiş 1,5 dərəcə isti həddini keçəcəyi ehtimal olunur.

UNEP-in rəhbəri İnger Andersen emissiyaların azaldılması, dayanıqlılığın artırılması və iqlim dəyişikliyinin nəticələrinə uyğunlaşma istiqamətində səylərin ikiqat artırılmasının zəruriliyini vurğulayıb. BMT hesab edir ki, uzunmüddətli nəticələri insanlar və ekosistemlər üçün məhdudlaşdırmaq məqsədilə 1,5 dərəcə həddinin aşılması belə, mümkün qədər az və qısamüddətli olmalıdır.

Hesabata görə, bunun üçün fosil yanacaqlardan istifadədən imtinanı sürətləndirmək, bərpaolunan enerji mənbələrindən istifadəni genişləndirmək, metan emissiyalarını azaltmaq, həmçinin meşələri, torpaqları və okeanları qorumaq lazımdır. Hökumətlərə milli iqlim planlarını həyata keçirmək və gücləndirmək, inkişaf etmiş ölkələrə isə ən həssas dövlətlər üçün uyğunlaşma tədbirlərinin maliyyələşdirilməsini artırmaq tövsiyə olunur.

Hesabatın müəllifləri xəbərdarlıq edirlər ki, temperaturun hər dəfə yüksəlməsi ilə ekstremal hava hadisələri, sağlamlığa, ərzaq və su təhlükəsizliyinə, infrastruktura və iqtisadiyyata dəyən zərər riskləri artacaq. Bununla yanaşı, iri buz örtüklərinin sabitliyinin pozulması və Amazon meşələrinin deqradasiyası da daxil olmaqla, iqlimdə geridönməz "dönüş nöqtələrinə" çatmaq ehtimalı artmaqda davam edir.

# Fransa Beynəlxalq Ədalət Məhkəməsinə verilib

Vanuatu Metyu və Hanter adaları ilə bağlı Fransaya qarşı Beynəlxalq Ədalət Məhkəməsinə (BƏM) müraciət edib. Paris isə bu ərazilər üzərində suverenliyindən imtina etməyəcəyini və məhkəmənin müraciətinə "vaxtı çatanda" cavab verəcəyini bildirib.

AZƏRTAC xəbər verir ki, Fransa Vanuatu ilə mübahisəli olan Metyu və Hanter adaları üzərində suverenliyindən imtina etməyəcəyini açıqlayıb. Bunu Sakit Okean adaları forumunun 55-ci toplantısında Fransanın Frankofoniya və Beynəlxalq Tərəfdaşlıqlar üzrə nazir nümayəndəsi Elenor Karoi bildirib.



Vanuatu BƏM-ə təqdim etdiyi müraciətdə Umaenupne (Metyu) və Umaeneg/Leka (Hanter) adaları üzərində suverenliyinin tanınmasını, həmçinin Vanuatu və Fransanın müstəsna iqtisadi zonaları və kontinental şelfləri arasında vahid dəniz sərhədinin müəyyənləşdirilməsini tələb edir.

Müraciət BƏM-in Nizamnaməsinin 38-ci maddəsinin 5-ci bəndinə əsaslanır. Bu mexanizm bir dövlətə qarşı tərəfin məhkəmənin yurisdiksiyasına əvvəlcədən razılıq vermədiyi halda belə BƏM-ə müraciət etməyə imkan verir.

Lakin məhkəmə bildirir ki, Fransa bu iş üzrə öz yurisdiksiyasını qəbul etməyənədək heç bir prosessual tədbir görülməyəcək və iş məhkəmənin ümumi siyahısına daxil edilməyəcək.

Beləliklə, Vanuatunun müraciəti diplomatik və hüquqi mübahisəni yenidən gündəmə gətirsə də, işin BƏM-də faktiki araşdırılması hazırda Fransanın yurisdiksiyanı qəbul edib-etməməsindən asılıdır.



# Fransızlar ölkənin maliyyə vəziyyətindən narahatdırlar

Fransızların böyük əksəriyyəti dövlət borcunun azaldılması üçün çətin və hədəfli tədbirlərin görülməsinə hazırdırlar. Lakin vergilərin artırılmasına qarşı çıxırlar. Yeni sorğu ölkə əhalisinin yarıdan çoxunun maliyyə vəziyyətini ciddi hesab etdiyini göstərir.

AZƏRTAC xəbər verir ki, Fransada 2027-ci il büdcəsi ilə bağlı müzakirələrin gərgin keçəcəyi gözlənilir. Ölkənin dövlət borcu ÜDM-in 115 faizini ötüb, büdcə kəsirinin isə təxminən 5 faiz səviyyəsində qalacağı proqnozlaşdırılır. Dövlət maliyyəsinin bərpası artıq təxirəsalınmaz məsələ kimi qiymətləndirilir.

Fransa İctimai Rəy İnstitutunun (IFOP) apardığı yeni sorğunun nəticəsinə görə, fransızların 40 faizi ölkədəki vəziyyəti çox narahatedici hesab edir. Bu göstərici səkkiz ay ərzində 5 faiz artıb. Respondentlərin təxminən yarısı isə vəziyyəti ciddi qiymətləndirir. Yalnız 11 faiz vəziyyətin o qədər də ciddi olmadığını düşünür.

Fransızların 77 faizi dövlət maliyyəsini düzəltmək üçün hədəfli və çətin tədbirlərin görülməsini dəstəkləyir. Eyni zamanda, 61 faiz dövlət xərclərinin azaldılmasını vergi artımından üstün tutur.

Vergilərin artırılmasına münasibət siyasi mövqedən asılı olaraq dəyişir. Milli Birlik partiyası (RN) tərəfdarlarının 77 faizi, Respublikaçı tərəfdarlarının 75 faizi və prezident düşərgəsinin 61 faizi vergi artımının əleyhinədir. Sol seçicilər arasında isə mövqe daha bölünüb. Sosialist Partiyası (PS) tərəfdarlarının 40 faizi həm qənaət tədbirlərini, həm də vergi artımını mümkün variant hesab edir.

Sorğu hökumət üçün də mühüm siqnal sayıla bilər. Baş nazir Sebastyən Lökornü hökuməti büdcədə kompromis imkanlarını araşdırarkən, əhalinin ümumi sərt qənaət siyasətindən narahat olduğunu nəzərə almalı olacaq.

Fransızlar büdcə qənaəti zamanı bəzi sahələrin qorunmasını tələb edirlər. Əhalinin 73 faizi səhiyyənin prioritet olaraq qorunmasını istəyir. Təhsil 46 faizlə ikinci yerdədir. Polis və jandarm, müdafiə, həmçinin iqlim dəyişikliklərinə uyğunlaşma da qorunması istənilən digər sahələr sırasındadır.

Beləliklə, fransızların mesajı kifayət qədər aydındır: dövlət maliyyəsi düzəldilməlidir, lakin yük bütün əhaliyə eyni şəkildə və vergi artımı hesabına qoyulmamalıdır.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Azərbaycan rəqəmsal xəritədə yeni ünvana daxil oldu

## DCO-ya üzvlük ölkəmizə nə vəd edir?




Azərbaycan Respublikası nüfuzlu Rəqəmsal Əməkdaşlıq Təşkilatına (DCO) üzv qəbul olunub. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib.

Məlumata görə, bu üzvlük Azərbaycana bir sıra mühüm imkanlar yaradacaq. DCO platforması vasitəsilə ölkə qabaqcıl rəqəmsal siyasətlərə, təcrübə mübadiləsinə və beynəlxalq standartlara çıxış əldə edəcək. Eyni zamanda, yerli startaplar üzv ölkələrin bazarlarına, birgə akselerasiya proqramlarına və vençur fondlarına çıxış imkanı qazanacaq. Gənclər və İKT mütəxəssisləri üçün birgə təlim və sertifikasiya proqramları vasitəsilə rəqəmsal bacarıqların artırılması sürətlənəcək, elektron ticarət və dataəsaslı biznes modelləri üzrə yeni əməkdaşlıq imkanları açılacaq.

Bundan əlavə, Azərbaycan Cənubi Qafqaz və Orta Asiya regionunda rəqəmsal körpü rolunu daha da gücləndirəcək, dövlət xidmətlərinin rəqəmsallaşması istiqamətində isə e-hökumət, süni intellekt və smart həllər sahəsində üzv ölkələrin təcrübəsindən faydalanmaq mümkün olacaq.

### Bu üzvlük insan kapitalına da töhfə verəcək

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən İKT üzrə mütəxəssis Elnur Hüseynli bildirib ki, ölkəmizin burada əsas qazancı texnologiya sahəsində beynəlxalq əməkdaşlığın institusional şəkildə genişlənməsi olacaq: "Bu üzvlüyün əhəmiyyətini üç əsas istiqamətdə qiymətləndirmək olar. Birincisi, bilik və texnologiya transferidir. Azərbaycan digər ölkələrin elektron hökumət, süni intellekt, rəqəmsal xidmətlər və smart şəhər həlləri üzrə təcrübəsindən daha sistemli şəkildə yararlana bilər. İkincisi, yerli texnologiya şirkətlərinin xarici bazarlara çıxış imkanlarıdır. Üçüncüsü isə insan kapitalı - gənclərin və İKT mütəxəssislərinin beynəlxalq təlim, sertifikasiya və əməkdaşlıq imkanlarının genişlənməsidir".

### Ən böyük qazanc nə olacaq?

E.Hüseynlinin fikrincə, bu suala bir cümlə ilə cavab vermək mümkündür: "Azərbaycan üçün əsas qazanc yeni rəqəmsal bazarlara və texnologiya ekosistemlərinə daha sıx bağlanmaq imkanının yaranmasıdır. Bunun bir neçə istiqamətdə nəticəsi ola bilər: Azərbaycan startaplarının xarici bazarlara çıxışı genişlənə bilər, yerli texnologiya şirkətləri üçün yeni tərəfdaşlar yarana bilər. Bundan başqa, vençur kapitalına çıxış imkanları arta bilər, İKT mütəxəssisləri beynəlxalq təlim və sertifikasiya proqramlarına qoşula bilər. Eyni zamanda süni intellekt və rəqəmsal dövlət sahəsində yeni təcrübələrin ölkəyə gətirilməsi mümkündür. Elektron ticarət və data əsaslı biznes modelləri də inkişaf edə bilər".

### Azərbaycan rəqəmsal "körpü"yə çevrilə bilər...

Ekspertin sözlərinə görə, burada xüsusilə bir məqama diqqət etmək lazımdır, üzvlük özü nəticə deyil, nəticə əldə etmək üçün alətdir: "Azərbaycan bu platformadan real layihələr, investisiya, startap əməkdaşlığı, birgə texnoloji məhsullar və kadr hazırlığı üçün istifadə edə bilsə, üzvlüyün iqtisadi effekti daha ciddi olacaq. Əks halda, bu, sadəcə beynəlxalq təşkilata üzvlük statusu olaraq qala bilər.

Məsələnin başqa bir maraqlı tərəfi də coğrafiyadır. Azərbaycan Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında yerləşir. Ölkənin nəqliyyat və logistika baxımından körpü rolunu gücləndirmək siyasətinə son illər rəqəmsal istiqamət də əlavə olunur. DCO üzvlüyünün Azərbaycanın regionda rəqəmsal əlaqələndirici rolunu gücləndirməsi gözlənilir. Dövlət xidmətlərinin rəqəmsallaşdırılması, süni intellekt və smart həllər sahəsində digər üzv ölkələrin təcrübəsindən yararlanmaq da bu əməkdaşlığın istiqamətləri sırasında göstərilir.

Bu baxımdan gələcəkdə Azərbaycanın yalnız texnologiya alan deyil, rəqəmsal həllər ixrac edən ölkəyə çevrilməsi daha böyük əhəmiyyət daşıyır. Çünki Azərbaycan artıq "mygov", SİMA, Digital Bridge və digər rəqəmsal həllər üzrə müəyyən təcrübə formalaşdırıb. Azərbaycan nümayəndə heyəti 2026-cı ilin əvvəlində DCO Baş Assambleyasında ölkənin süni intellekt strategiyası və bu rəqəmsal məhsullar barədə də təqdimatlar keçirib".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

### Risklər də mövcuddur...

Ekspert bəzi risklərin olma ehtimalını da qeyd edib: "Beynəlxalq təşkilata üzvlük avtomatik investisiya, avtomatik startap uğuru və ya avtomatik texnoloji sıçrayış demək deyil. Dünya təcrübəsi göstərir ki, belə platformalardan ən çox faydalanan ölkələr həmin əməkdaşlığı konkret layihələrə çevirə bilən ölkələrdir.

Azərbaycan üçün də əsas sual bundan sonra başlayır: DCO üzvlüyü neçə yeni layihəyə çevriləcək? Neçə startap xarici bazara çıxacaq? Nə qədər investisiya cəlb olunacaq? Neçə İKT mütəxəssisi beynəlxalq proqramlardan yararlanacaq?

Əgər bu suallara qarşıdakı illərdə real rəqəmlərlə cavab vermək mümkün olacaqsa, bugünkü üzvlük həqiqətən strateji addım kimi qiymətləndirilə bilər. Ən vacib məsələ budur: Azərbaycan böyük rəqəmsal ekosistemə sadəcə qoşulan ölkə olacaq, yoxsa orada öz məhsullarını, startaplarını və texnologiyalarını təqdim edən ölkəyə çevriləcək?

Qeyd etdiyim kimi, bu üzvlük yalnız başlanğıcdır. Əsas iş bundan sonra - əməkdaşlığı real texnologiyaya, investisiyaya, ixraca və insan kapitalına çevirmək mərhələsində başlayır".

*Yeganə BAYRAMOVA*

# İnformasiyanın ünvanı...

İnsanların əsrlər boyu ən böyük istəklərindən biri istənilən suala cavab tapmaq və lazım olan məlumata asanlıqla çıxış əldə etmək olub. Bir vaxtlar bunun üçün kitabxanalarda saatlarla kitab vərəqləmək, arxivlərdə araşdırma aparmaq və müxtəlif mənbələri bir-bir nəzərdən keçirmək lazım gəlirdi. Bu gün isə informasiya axtarışı demək olar ki, bir neçə saniyəlik prosesə çevrilib. Hər hansı mövzu ilə bağlı məlumat axtaranda, ünvan və marşrut müəyyənləşdirəndə, elmi araşdırmalara nəzər salanda, son xəbərləri izləyəndə, hətta gün ərzində nə hazırlayacağımızı düşünəndə belə ilk müraciət etdiyimiz ünvan məhz "Google" olur.

1998-ci il sentyabrın 4-də Larri Page və Sergey Brin tərəfindən yaradılan "Google" sadəcə bir axtarış sistemi olaraq işə başlamışdı. Amma bu gün o, həyatımızın ən önəmli informasiya körpüsünə çevrilib. "Google"un gücü ondadır ki, o yalnız cavab vermir, həm də insanları öyrədir, istiqamətləndirir, düşünməyə vadar edir, biliklərə olan yolumuzu asanlaşdırır, dünyanı daha əlçatan edir. İnformasiya bərabərliyi prinsipini dəstəkləyən bu texnologiya dünyanın ən ucqar kəndində yaşayan bir insanla, böyük şəhərlərdə yaşayanları eyni informasiya mənbəyinə qovuşdura bilir.

"Google" təkcə axtarış sistemi deyil, həm də innovasiyanın simvoludur. "Gmail", "Google Maps", "YouTube", "Android" əməliyyat sistemi - bunların hamısı bir zamanlar kiçik bir universitet layihəsi olaraq başlayan ideyanın nəticəsidir.

## Google necə yaranıb?

### 1 terabaytlıq harddisk və tələbə yataqxanası otağı...

İqtisadi gücü və təqdim etdiyi xidmətlərin mübahisəsiz üstünlüyü ilə bütün dünyanı heyrətə gətirən internet şirkətinin qısa, ancaq maraqlı quruluş tarixçəsi var.

"Google"un qurucularından biri Sergey Brin əslən rusiyalı mühacirdir. Şirkətin digər qurucusu Larri Page Sergeylə 1995-ci ildə ABŞ-ın Stanford universitetində tanış olub. Bu iki gəncin elmi araşdırmalarının əsasını gündən-günə böyüməkdə olan nəhəng internet məkanında lazımi informasiyanın ən qısa və effektiv şəkildə əldə edilməsi üçün tələb olunan axtarış sistemlərinin yazılması təşkil edirdi. 1996-cı ilin yanvarında onlar "Backrub" adlanan axtarış sistemini proqramlaşdırmağa başladılar. Bu sistem kiçik miqyasda test edildi və onun axtarış probleminə gətirdiyi unikal həllər mütəxəssislərin təqdirini qazandı.

Larri və Sergey 1998-ci ilin ilk yarısında internetdə inqilab yaradacaq layihələrin həyata keçirilməsi üçün öz fəaliyyətlərini gücləndirdilər. Onlar icad etdikləri yeni texnologiyanı "Google" adlandırdılar.

"Google" riyazi termindir və 1 rəqəminin arxasında 100 sıfırı ifadə edir. Bu termindən istifadə etməklə onlar təqdim etdikləri texnologiyanın sonsuz imkanlarını ifadə etmək istəyirlər. Dostlar 1 terabayt həcmində olan kompüter harddiskini güzəştli qiymətə alırlar və tələbə yataqxanasında Larrinin otağını "Google"un informasiya bazasının mərkəzi kimi istifadə etməyə başlayırlar.



### Şirkətin ilk addımları

İlk olaraq onlar "Yahoo" şirkətinin qurucusu Devid Filoya müraciət edirlər. Filo onların yeni texnologiyasının əhəmiyyətini təqdir edir.

Lakin dostların Devidden yardım almaq planları baş tutmur. Digər internet portallarının rəhbərləri ilə də danışıqlar nəticəsiz qalır. Bu uğursuz səylərdən sonra Sergey və Larri öz bizneslərini qurmaq qərarına gəlirlər. Bunun üçün müəyyən sərmayə tələb olunurdu. Onlar tezliklə biznes plan hazırlayırlar. İlk müraciət etdikləri şəxs "Sun Microsystems" şirkətinin qurucusu olan Endi Bextolşaym olur. O, uzaqgörən olduğundan "Google" sisteminin gələcəyi və perspektivləri onda ciddi təəssürat oyadır və dərhal "Google.İnc" şirkətinin adına 100 min ABŞ dolları məbləğində çek yazır.

Ancaq "Google.İnc" adlı şirkət mövcud deyildi. Sergeylə Larrinin ilk işi bu şirkəti qeydiyyatdan keçirmək olur. Daha sonralar onlar öz qohum, dost və tanışları arasında investor arayışların davam etdirərək 1 milyon dollara yaxın pul tapmağa nail olurlar. 1998-ci ildə "Google.İnc" şirkəti rəsmi şəkildə fəaliyyət göstərməyə başlayır. Şirkətin qapıları məsafədən idarə olunan pultla açılıb bağlanırdı. Çünki "Google"un ofisi adi bir qarajda yerləşirdi.

Bu gün isə "Google"un fəaliyyətləri artıq 140 mindən artıq server vasitəsi ilə aparılmaqdadır. Onun təqdim etdiyi xidmətlər 249 dilə, eyni zamanda Azərbaycan dilinə tərcümə edilib.

Sentyabrın 4-ü yalnız bu şirkətin yaranma tarixi deyil, həm də bəşəriyyətin informasiya dövrünə atdığı ən böyük addımlardan birinin ildönümüdür. "Google" artıq gündəlik həyatımızın parçası, beynimizin əlavə yaddaşı, suallarımızı ilk ünvanladığımız dostumuzdur.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4473**
**Sifariş: 1132**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova